www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 iyul 2015-ci il Cümə axşamı № 142 (6170) Qiymәti 40 qәpik

**Xəbər**

## Bakıda gənci sevgilisi ilə öpüşdüyünə görə öldürdülər

yazısı səh.14-də

**Gündəm**

### "Space"nin efirində baş verən biabırçılıq aranı qatdı

"Günaydın"ın günü qaraldı; Qulu Məhərrəmli: "Televiziyalar cəmiyyət üçün ciddi təhlükəyə çevrilir"

yazısı səh.11-də

### Beynəlxalq Banka borclu olan daha bir iş adamı həbs edildi

yazısı səh.2-də

### Fərəc Kərimlinin apelyasiya məhkəməsi oldu

yazısı səh.3-də

*Kamandar Nəsibov:*

### "Bank işi ilə bağlı tutulanların heç birini "sançast"a qoymurlar

yazısı səh.6-da

*Elxan Şahinoğlu:*

### "Avropa Birliyi ilə Azərbaycan arasında münasibətlər dondurulub"

yazısı səh.7-də

### Sahibkarın nazirlə bağlı iddiasına reaksiya gəldi

yazısı səh.6-da

### Nüvə məsələsinə görə Tehran və Vaşinqtonda siyasi gərginlik artır

yazısı səh.10-da

### Bakıdan 10 milyon manatla qaçan iş adamı haqda şok məlumatlar

yazısı səh.12-də

### Azalan fənlər üzrə dərs deyən müəllimlərin taleyi necə olacaq?

yazısı səh.11-də

### Enerji içkiləri sizi öldürə bilər...

yazısı səh.15-də

**Ramazan ayının 15-ci günü**

İftar 21.31. İmsaq (azan) 4.45 (QMI)

15-ci günün duası: "İlahi, bu gün məni Sənə həqiqi təzim edib, ulu sayılanlar kimi itaət etməyə müvəffəq et! Sənə yaxşı bəndələr kimi tövbə etməklə qəlbimi işıqlandır! Ey, qorxanlara Aman Verən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Talanmış bankla bağlı yeni sensasion xəbərlər

# BEYNƏLXALQ BANKDA SAXTA "BRİLYANT İŞİ"

Bankın filialından götürülən küllimiqdarda kredit Artur Rəsizadənin qohumu olan nazir müavininin karyerasına son qoya bilər; ABB ilə bağlı araşdırma artıq iri fiqurlara çatıb...



yazısı səh.5-də

# Seçki müzakirələri qızışdı: YAP-a seçki plagiatı ittihamı

Hakim partiya namizədlərini müxalifətdən sonra açıqlamağı düşünür; Gülağa Aslanlı: "Deməli, onlar Müsavatın 2010-cu ildəki taktikasını tətbiq etmək istəyirlər"

yazısı səh.8-də



### Ayaz Mütəllibovun da adı keçən "vətənə xəyanət" ittihamı

yazısı səh.4-də



*Fazil Mustafa:*

### "Biz Avropa nikahında yoxuq, ancaq Avropa Oyunlarında həmişə olacağıq"

yazısı səh.7-də



*Zahid Oruc:*

### "Qərb hazırda Azərbaycan və Rusiyanın razılaşmalarını bütün vasitələrlə linç etmək üçün çalışır"

yazısı səh.10-da



# Tovuzda yol tikintisinə 4,5 milyon manat ayırıldı

**Prezident İlham Əliyev Tovuz rayonunun Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, 32 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,5 milyon manatı Tovuz Rayon İcra Hakimiyyətinə ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabineti isə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Azadlıq-2015" deputatlığa namizədlərlə bağlı müzakirə apardı

**1 iyul 2015- ci il tarixdə Azadlıq - 2015 Seçki Blokunun Sədrlər Şurasının iclası olub. İclasda KXCP, VİP, ALDP, Aydınlar partiyası və AXP sədrləri iştirak edib. Toplantıda ictimai-siyasi vəziyyət və qarşıda duran vəzifələr müzakirə edilib.**

Toplantıda “Azadlıq-2015" Seçki Blokunun deputatlığa namizədlərinin siyahısı üzərində müzakirələr aparılıb və müəyyənləşdirilmiş deputatlığa namizədlərlə görüşün keçirilməsi barədə qərar qəbul edilib. Milli Məclisə seçkilərin bütün mərhələləri üzrə demokratik qüvvələrin vahid monitorinq mərkəzinin yaradılması təşəbbüsü ilə digər siyasi və ictimai sektor təsisatları ilə məsləhətləşmələr aparılması məqsədəuyğun sayılıb.

I Avropa idman oyunları müddətində Bakıda nəqliyyata və digər sahələrə qoyulan məhdudiyyətlərin, o cümlədən Bakı qeydiyyatında olmayan avtomobillərin şəhərə buraxılmaması özbaşınalıq və ayrıseçkilik kimi dəyərləndirilib. Qeyd edilib ki, artıq bu məhdudiyyətlərdən istifadə olunması vətəndaşlardan rüşvət alınması sisteminin formalaşmasına dair çoxsaylı məlumatlar daxil olmaqdadır. Seçki bloku həmin məhdudiyyətlərin ləğvini tələb edib.

Daha sonra bu həftə ərzində bir sıra xarici ölkə səfirlikləri ilə keçiriləcək görüşlərlə bağlı fikir mübadiləsi aparılıb. Digər ictimai-siyasi və blokdaxili məsələlər müzakirə edilib.

❑ **M.MAHRIZLI**

# Tərtərin cəbhəboyu kəndlərində mühafizə divarları çəkilir

**Tərtər rayonunun Yuxarı Qapanlı və Yuxarı Qaradağlı kəndlərinin bir hissəsi erməni silahlı bölmələrinin mövqelərinə yaxın ərazidə yerləşir. “Report” xəbər verir ki, bu kəndlərdə yaşayan insanları erməni gülləsindən qorumaq üçün mühafizə divarları tikilir.**

Xüsusi təhlükəli ərazidə yerləşən bir neçə evin qarşısında mühafizə divarları tikilir. Divarlar evlərin hündürlüyü səviyyəsindədir.

İşlərin qısa zamanda başa çatdırılması üçün inşaata xeyli işçi qüvvəsi cəlb edilib. Bu divarlar təhlükənin qarşısını alaraq insanların rahat və təhlükəsiz hərəkət etməsinə şərait yaradır.

Cəbhə xəttində yerləşən kənd sakinlərinin sözlərinə görə, düşmən ordusunun atdığı mərmilər bu günə qədər pəncərədən içəri daxil olurdu. Lakin indi atılan mərmi yeni çəkilən mühafizə divarına dəyir. Sakinlər həm də bildirirlər ki, ermənilərin onları hədəf seçməsinə baxmayaraq, burada yaşamaq əzmlərini qıra bilməyəcəklər.

“Elm” tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# “Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığın inkişafında maraqlıdır”

## **Mahmud Məmmədquliyev:** “Aİ Qarabağ münaqişəsinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini dəstəkləməlidir”

**Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Minskdə Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin qeyri-rəsmi dialoq görüşündə iştirak edib.**



Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, görüşdə Şərq Tərəfdaşlığının Riqa Zirvə toplantısından sonra Avropa İttifaqı (Aİ) ilə tərəfdaş ölkələr arasındakı münasibətlərin gələcək perspektivləri müzakirə olunub.

M. Məmməd-Quliyev Azərbaycan və Aİ arasında vətəndaşların hərəkəti, enerji və nəqliyyat bağlantılarının yaradılması və ticarət əlaqələrinin inkişaf etdirilməsi imkanlarına toxunub. O, həmçinin Azərbaycanda yaxşı idarəçilik, o cümlədən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, sahəsində aparılan islahatlar və həyata keçirilən tədbirlər haqqında məlumat verib və bu çərçivədə ASAN xidmətin səmərəli fəaliyyətini qeyd edib.

Nazir müavini Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinin beynəlxalq ictimaiyyət, o cümlədən Aİ tərəfindən dəstəklənməsinin vacibliyini vurğulayıb.

M. Məmməd-Quliyev qarşılıqlı maraqlara söykənən bərabərhüquqlu əməkdaşlığın təşviqi baxımından Azərbaycanın Aİ ilə gələcək münasibətlərini ikitərəfli formatda inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Qeyd edək ki, xarici işlər nazirlərinin qeyri-rəsmi dialoq görüşləri növbəlilik əsasında Şərq Tərəfdaşlığı ölkələrinin paytaxtlarında təşkil olunur. Məqsəd tərəfdaş ölkələr və Aİ tərəfindən münasibətlərin vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaqdır. Bundan öncəki qeyri-rəsmi dialoq görüşü 9 sentyabr 2014-cü il tarixində Bakıda keçirilib.

# Paralimpiyaçılarımız mükafatlandırıldı

**İlk Avropa Oyunlarının yekunlarına həsr olunan növbəti iclas keçirilib. Azərtac-ın məlumatına görə, iclasda Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlham Rəhimov çıxış edib. O bildirib ki, paralimpiyaçılar uzun müddət idi ki, bu yarışa hazırlaşıblar.**

Daha sonra Azərbaycanda Paralimpiya hərəkatının inkişafında göstərdiyi xidmətlərinə görə İlham Zəkiyev “Paralimpiya medalı”, birinci Avropa Oyunlarında yüksək nailiyyətlərinə görə Səbinə Abdullayeva, Zakir Mislimov, baş məşqçi İbrahim İbrahimov, şəxsi məşqçilər Elxan Rəcəbli, Yengibar Əliyev və Pərviz Baratov Azərbaycan Milli Paralimpiya Komitəsinin Fəxri fərmanı ilə təltif ediliblər.



# Daha bir şirkət rəhbəri həbs edildi

**Azərbaycan Beynəlxalq Bankından götürülən külli miqdarda vaxtı keçmiş kredit borcu ilə əlaqədar daha bir iş adamı həbs edilib.**

APA-nın məlumatına görə, “General Construction” şirkətlər qrupuna daxil olan Məhdud Məsuliyyətli Cəmiyyətlərdən (MMC) birinin direktoru Camal Həsənov Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilir. Onun barəsində məhkəmədə həbs-qətimkan tədbiri seçilib.

C. Həsənovun hazırda Bakı İstintaq Təcridxanasında saxlanıldığı bildirilir.



# Bakıda Çin səfirliyi önündə aksiya...

**Bakıda gənclər aksiya keçirib. Aksiya “Milliyətçi Gənclər Təşkilatı”nın təşəbbüsü ilə Çin səfirliyi önündə baş tutub. Aksiyanın adıçəkilən ölkədə türklərə qarşı edilən zülmə görə keçirildiyi bildirilib. Xüsusilə mübarək Ramazan ayında oruc tutanlara verilən amansız işgəncələr aksiyanın keçirilməsinə təkan verib.**

Təşkilatın üzvü Orxan İsmayılovun azadxeber.az-a verdiyi məlumata görə, polis aksiyanı dağıdıb və 3 nəfəri - Aqil Musazadəni, Ülvi Məmmədovu və Müşviq Vəliyevi saxlayaraq bölmə istiqamətində aparıb. Polis əməkdaşları tərəfindən xəbərdarlıq alan gənclər sərbəst buraxılıb.

# Bakıda iki nəfər dənizdə batıb

**Bakıda iki nəfər dənizdə batıb. Musavat.com-un Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Qaradağ rayonunda 2 nəfərin dənizdə çimərkən batdığı barədə daxil olub.**

Fövqəladə Hallar Nazirliyinin dalğıc-xilasediciləri tərəfindən dənizdə batan şəxslərin axtarışlar davam etdirilir.

Böyük Britaniya səfirliyi separatçıların London səfərinə dair açıqlama yaydı

Rəsmi London qondarma “DQR”i tanımır, Qarabağ separatçılarının rəhbərinin Böyük Britaniyaya səfəri özəl xarakter daşıyır. Bu barədə Turan-a Böyük Britaniya səfirliyindən Britaniyanın Chatham House İnstitutunun Saakyanı dəvət etməsini şərh edirkən bildiriblər.

“Böyük Britaniya qondarma Dağlıq Qarabağ Respublikasını tanımır və Böyük Britaniya hökumətinin onun istənilən nümayəndəsi ilə heç bir əlaqəsi yoxdur.

Saakyan Böyük Britaniyaya özü gedib və Böyük Brutaniya hökuməti onun səfərində heç bir oynamır.

Chatham House müstəqil qurumdur və öz tədbirlərinə kimi dəvət etməklə bağlı qərarları özü verir.

Böyük Britaniya hökuməti qeyri-hökumət təşkilatlarının fəaliyyət azadlığına hörmətlə yanaşaraqbu qərarlara heç bir təsir göstərmir yoxdur", - səfirliyin şərhində deyilir.

Saakyan Dağlıq Qarabağ ətrafında vəziyyətə dair dinləmələrə dəvət olunub. Tədbir iyulun 8-də Londonda keçiriləcək.

Chatham House onu “Dağlıq Qarabağ Respublikasının de-fakto prezidenti” kimi təqdim edir.

Qeyd edək ki, Britaniya hökuməti Saakyanın səfərində əlaqəsinin olmadığını bildirsə də separatçıların liderinə vizanı Byük Britaniyanın diplomatik xidməti verib.

# Bakı 2019-cu ildə keçiriləcək yay Universiadasına ev sahibliyi edə bilər

**“Bakı 2019-cu ildə keçiriləcək yay Universiadasına ev sahibliyi edə bilər. APA-nın TASS-a istinadən verdiyi məlumata görə, bunu Rusiya Tələbə İttifaqının rəhbəri Oleq Matıtsin Beynəlxalq Universitet İdmanı Federasiyasının İcraiyyə Komitəsinin iclasının yekunları ilə bağlı danışarkən deyib. O, potensial namizədlər arasında bir sıra ölkələrin adlarının çəkildiyini bildirib: ”Bunlar İtaliya, Türkmənistan və Azərbaycandır. Bu gün üçün namizədlərlə bağlı hələ heç bir qərar qəbul olunmayıb. Adını çəkdiyim ölkələr tərəfindən “Universiada-2019"a ev sahibliyi etmək üçün rəsmi müraciət daxil olmayıb. Danışıqlar aparılır”.**

O. Matıtsinin sözlərinə görə, bu tədbiri keçirəcək namizəd noyabr ayında Federasiyanın Baş Assambleyasının iclasında təqdim olunacaq.

Xatırladaq ki, bu il yay Universiadası 4-14 iyul tarixlərində Cənubi Koreyanın Kvanju şəhərində keçiriləcək. 2019-cu il qış Universiadası isə Krasnoyarskda baş tutacaq.

# Silahlı Qüvvələrinə Yardım Fonduna toplanan vəsaitin həcmi açıqlandı

**Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna toplanan vəsaitin həcmi son bir ayda 1 092 229 manat artıb. Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, 1 iyul 2015-ci il tarixinə Fondun manat hesabındakı vəsait 65 077 066 manat, ABŞ dolları ilə olan vəsait 211 791 dollar, avro hesabındakı vəsait isə 593 avro təşkil edib.**

Fondun ABŞ dolları, avro və rus rublu ilə hesablarına son bir ildə vəsait daxil olmayıb.

# Heydər Əliyev prospektində kütləvi dava...

**Bakıda qohumlar arasında dava düşüb. Sabunçu Rayon Polis İdarəsinin 12-ci bölməsindən APA-ya verilən məlumata görə, hadisə Heydər Əliyev prospektində qeydə alınıb.**

Bakı şəhər sakinləri, 1976-cı il təvəllüdlü Xəyal Zülfəli oğlu Alşanov, qardaşı - 1974-cü il təvəllüdlü Ramiz, qardaşı oğlu - 1994-cü il təvəllüdlü Ramid, 1989-cu il təvəllüdlü Nihad Nazim oğlu Məmmədov, Valeh Xəlil oğlu Süleymanov və Əli Elxan oğlu Abıyev xuliqanlıq zəminində bir birlərini döyüblər.

Hazırda faktla bağlı araşdırma aparılır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Azadlıq"ın yalanına "Azərbaycan"dan cavab gəldi

## Bəxtiyar Sadıqov: "Bu cür yanaşma despotizmdən irəli gəlir"

**"Yeni Müsavat" qəzetində AXCP sədrinin keçmiş müşaviri Zemfira Məhəddinovanın dərc olunan fikirlərinin bir gün sonra "Azərbaycan" qəzetində getməsinə "Azadlıq" qəzeti özünə yaraşan tərzdə "izahat" verib. "Azadlıq" qəzeti buna "”Yeni Müsavat" "Azərbaycan"ın pasötürəni rolunda" başlıqlı yazı ilə "cavab verib". Yazıda bildirilir:**

"Son vaxtlar ”Yeni Müsavat" qəzeti rəsmi qəzet "Azərbaycan"ın pasötürəni rolunda çıxış edir. Bu qəzetdə Milli Şura, AXCP haqqında dərc edilən böhtanlar bir gün sonra "Azərbaycan" qəzetində dərc olunur. Sanki adıçəkilən nəşrlərin baş redaktorları arasında anlaşma var: Mən öz qəzetimdə Milli Şuranın, AXCP-nin ünvanına iftiralar yağdıracam, sən də öz qəzetində bunu tirajla. Özü də əsasən AXCP sıralarından çıxarılan şəxslərin müsahibələri bu qəzetlər üçün maraqlı olur.

"Yeni Müsavat" son belə pası srağagün ötürüb. Qəzet AXCP sədrinin keçmiş müşavirini danışdırıb. Bir gün sonra, yəni dünən "Azərbaycan" qəzeti dərhal həmin müsahibəni tirajlayıb. Necə deyərlər, Allah bazar versin".

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə musavat.com-a açıqlamasında "Azadlıq"ın fikirlərinin doğru olmadığını bildirib:** "Elə bu gün *(1 iyun-red.)* ”Dostluq" parkındakı villalara görə həbslərlə bağlı "Yeni Müsavat"ın yazısını "Azadlıq" qəzeti götürüb verib. Yazı "Yeni Müsavat"a istinadən bir gün sonra "Azadlıq"da çap olunub. Hansı qəzet hansı mövzuda nə yazı verirsə, onun öz işidir. Azərbaycanda mətbuat və söz azadlığı olduğunda, müstəqil mətbuat olduğundan kimi haradan nə götürür, hansı mövzuda hansı məsələni verir, hansı fakta hansı münasibət bəsləyir, bu, redaksiyanın özünün, baş redaktorun, kollektivin və o yazının müəllifinin, jurnalistin öz işidir. Biz də daima izləyirik. Azərbaycanda eyni zamanda ideoloji mübarizə də gedir. Müstəqillik dövründən başlayıb bu mübarizə. Sovet dövründə əks fikirlilik yox idi. Müxtəlif cür düşünən insanlar ucadan öz fikirlərini söyləyib qəzetdə yaza bilməzdilər. Amma müstəqillik bəhrələrindən biridir ki, kim necə düşünürsə, alternativ fikirlərə də, mövqelərə də yer verilir. Bu gün bu mübarizə gedir və çox təəssüf ki, bəzən milli maraqlarla bağlı olan məsələlərdə də bu cür yanaşmalar olur. Mən belə hesab edirəm ki, iqtidar, müxalifət olmasından asılı olmayaraq, milli maraqlarla bağlı məsələlərdə hökmən bir mövqe olmalıdır. Azərbaycan xalqının, dövlətin maraqları prizmasından baxılıb hadisələri qiymətləndirib faktlara açıq yanaşılmalıdır. Ona görə də Avropa Oyunları dövründə də, digər məsələlərdə də "Azadlıq" qəzeti adətən fərqli mövqe tutur, antiazərbaycançı şəbəkənin mövqeyindən çox zaman çıxış edir. Özü həmişə fərqli mövqe, fikir desə də, sərbəst fikir deyəndə, azad fikir bildirəndə nədənsə çox qıcıqla yanaşır və elə gəlir ki, hamı bunlar kimi düşünməlidir, bunlar kimi yazmalıdır. Əgər onlar elə düşünürlərsə, mətbuat və söz azadlığı nədir, bu, onlara çatmayıb. Biz də əgər AXCP-nin xalqın mövqeyinə uyğun gəlməyən mövqeyi ilə bağlı məsələlərdə ki, onlarla razılaşmırıq, bizim haqqımızdır. Eyni zamanda bir vaxtlar bu partiyada olub, sonradan bu partiyanın funksionerlərinin, rəhbərlərinin, özünün mövqeyinin, onların yanlışlığını, xalqın, millətin mövqeyi ilə uyğun olmadığını dərk edərək sonradan qopublar və o partiya barədə də öz fikirlərini söyləyirlər. Bizim üçün belədir də, bir var deyirlər ki, bunu iqtidar adamı deyir, deyəcəklər ki, iqtidarla müxalifət həmişə bir-birinə xoş gəlməyən sözlər deyir, mövqelərdə ziddiyyət olur. Və bir də, sənin öz içindən götürüb səni deyirlər. Belə olanda, biz bunu daha obyektiv, daha dəqiq, daha dəyərli hesab edirik. Onu biz qəzetimizdə veririk. Bu mənada, biz o yazını vermişik. Yazı harada çıxıb, açıqlama hara verilib, buraya dəxli yoxdur. O adam imtina etmir, demir ki, bu sözü deməyib. Buna görə də "Azadlıq"ın bu cür iradlarını mən qəbul etmirəm. Çünki elə həmişə "Yeni Müsavat" qəzetində olan yazıları o da öz səhifəsində qoyur. Necə olur, "Azadlıq"a olar, bizə yox? O hüququ bizdən kim alıb? Və yaxud bir müstəsna hüquq kimi bunu bəlkə "Azadlıq"a veriblər? Elə deyil. Bu, bizim öz işimizdir. Hansı mövzuya hansı məsələyə necə yanaşırıq, yazını haradan götürürüksə, bu, bizim öz işimizdir. Burada haradasa bir əməkdaşlıq axtarmaq mənasızdır. Amma son dövrlər "Azadlıq" qəzeti "Yeni Müsavat"a böyük hücumlar təşkil edir. Milli Şura üzvləri-filanları hücumlar edirlər. Bir iqtidar adamı kimi mənə müəyyən mənada ləzzət edir. Təki müxalifət mövqeli qəzetlər bir-biri ilə bu cür münasibətdə olsunlar. Onda bizim işimiz asan olur. Çünki bir-birini bəzən nədəsə ittiham edirlər, nədəsə bir-birinə qara yaxırlar, qoy olsun. Lakin bu hamısı etik normalar çərçivəsində olmalıdır. Amma bu mübarizəyə ki, "Azadlıq" "Yeni Müsavat"la başlayıb, Cəmil Həsənli ilə tutaq ki, Rauf Arifoğlu artıq bir-birinə açıq qəzet müstəvisində səngərə keçib, atəşlər açırlar. Bu işə "Azərbaycan" qəzetini qatmasınlar. Biz nədən necə yazırıq, özümüz bilərik. Faktı haradan götürürüksə, o da bizim işimizdir. "Azadlıq" qəzetinin məsələyə bu cür yanaşması AXCP-dəki despotizmdən, bir nəfərin idarə etməsi, belə şeylərdən irəli gəlir. Bizim üçün bu cür yanaşma heç bir əhəmiyyət daşımır".

**Qeyd edək ki, bir neçə gün əvvəl Əli Kərimlinin xanım müşaviri AXCP sədrinə və çevrəsinə şok ittihamlar səsləndirib.** "İllərlə millətin apardığı mübarizəni satıb pula çevirən, xalqın milli ruhunu öldürən, onun özünəgüvənini sarsıdan, ətrafında qoçu və şər-böhtançı dəstə saxlayan, haqqı deyən adamları ləkələyib sıradan çıxaran heç bir kəs bu xalqın qulluğunda ola bilməz. Bunların apardıqları çirkin oyunları görürdüm. Heç bir müdafiəm yox idi. Adlarını kişi qoyanlar, təklikdə dediklərimi təsdiq edirdilər. Üzdə isə yaltaqlanırdılar. Heç səmimi olmadılar. Hamı qorxurdu. Hətta hakimiyyətdən qorxmadıqları qədər partiya rəhbərliyindən qorxurdular. Bilirdilər ki, partiyadakı diktator elə-belə diktator deyil. Daha amansız, daha həyasızdır. Mən azad ruhlu adamam. O mühitdə çox qala bilməzdim. Arxasında əməlli-başlı şər-böhtan dəstəsi var. Elə şərləyərdi ki, altından çıxmaq olmazdı. Təkcə qovmaqla əl çəkməzdi",- deyə o vurğulayıb.

❑ **RÖYA**



# Başqan müavininin məhkəmə prosesi keçirilib

## Verilən vəsatətlər rədd edilib; proses 14 iyulda davam edəcək

**İyunun 30-da Bakı Apelyasiya Məhkəməsində həbsdəki Müsavat başqanının müavini Fərəc Kərimlinin hökmdən verilən şikayətinə baxılıb. Prosesdə başqan müavininin özü də iştirak edib.**

Məhkəmə iyulun 14-dək tarixinə təxirə salınıb. Bu barədə müsavat.com-a vicdan məhbusunun atası Raqif Kərimli məlumat verib. O, məhkəmənin təxirə salınması ilə bağlı bunları deyib: "Məhkəməyə hazırlıq iclası keçirildi. Proses vəkilin iştirak etməməsi ucbatından 14 iyula təxirə salındı. Məsləhətləşmədən sonra belə bir qərar qəbul edildi. Vəkilin verdiyi vəsatətlərin heç biri qəbul edilmədi. Fərəci şüşənin arxasında saxlamışdılar. Heç bir söz deyə bilmədi".

**Fərəc Kərimlinin vəkili Nemət Kərimli proses barədə danışdı:** "Məhkəmədə üç vəsatət verdik. Həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətimiz oldu. Əvvəllər təmin edilməməsi üçün əsassız yalanları var idi. Artıq bu hallar aradan qalxmışdı. Amma yenə də təmin olunmadı. Digər vəsatətimiz onun məhkəmə zamanı şüşə arxasında saxlanılması ilə bağlı oldu. Bu vəsatət də rədd edildi. Birinci instansiya məhkəməsində qanunvericilik kobud şəkildə pozulub. Əlavə şahidlərin dindirilməsi, videogörüntülərin nümayiş etdirilməməsini diqqətə çatdıraraq, məhkəmə istintaqının qismən aparılmasını xahiş etdim. Lakin hakim Azərbaycan reallığından çıxış edərək, bu vəsatəti də rədd etdi. Proses iyulun 14-nə təxirə salındı".



Qeyd edək ki, Fərəc Kərimli ötən il iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli saxlanılıb. Hər iki qardaşa qarşı 234-cü maddə üzrə ittiham elan olunub. Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə Sirac Kərimli 6, Fərəc Kərimli isə, 6 il yarım müddətində azadlıqdan məhrum edilib. Sirac Kərimlinin apelyasiya şikayəti təmin olunmayıb. O, hazırda 10 saylı cəzaçəkmə müəssisəsində cəza çəkir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

# Ayaz Mütəllibovun da adı keçən "vətənə xəyanət" ittihamı

## Rasim Musabəyov: "Onda gərək Nikolayın taxtdan salınıb güllələnməsi də araşdırılsın"


Ayaz Mütəllibov

**Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" Partiyasından olan bir qrup deputatının SSRİ Dövlət Şurası ilə bağlı Baş Prokurorluğa etdiyi müraciət müzakirə mövzusudur. Rusiya mənbələrinin yaydığı məlumata görə, SSRİ Dövlət Şurasının Baltikyanı respublikaların müstəqilliyinin tanınmasına dair verdiyi qərarının "vətənə xəyanət" kimi qiymətləndirilməsi istiqamətində ölkənin Baş Prokurorluğu araşdırma aparır.**

"Vahid Rusiya" Partiyasının üzvü olan bir neçə deputatın baş prokuror Yuri Çaykaya göndərdiyi müraciətdə 1991-ci ildə SSRİ Dövlət Şurası yaradılmasının qeyri-konstitusion olduğu bildirilib. Müraciətdə həmin Dövlət Şurasının qərarı əsasında Baltikyanı ölkələrin *(Litva, Latviya və Estoniya)* müstəqilliyinin tanınmasının əsassız olduğu vurğulanır və buna etiraz edilir.

Rusiyanın Baş Prokurorluğu SSRİ Dövlət Şurasının Baltikyanı respublikaların müstəqilliyinin tanınmasına dair qərarının "vətənə xəyanət" kimi qiymətləndirilməsinə dair müraciəti əsasında araşdırma başladıb.

Rusiya Baş Prokurorluğundakı mənbə deyib ki, deputatların müraciətində göstərildiyi kimi, Baltikyanı respublikaların müstəqilliyinin tanınmasına dair qərar qeyri-konstitusion hakimiyyət orqanı tərəfindən qəbul edilib. Mənbənin bildirdiyinə görə, prokurorluğun bu müraciətə cavabı Krımın Ukraynanın tərkibinə verilməsinə dair 1954-cü ildə qəbul edilmiş qərarın qanuniliyinin yoxlanılmasına dair sorğuya verilmiş cavab kimi olacaq.

Rusiya Baş Prokurorluğu artıq Krımın Ukraynaya birləşdirilməsinə dair Xruşşovun qərarını qeyri-qanuni elan edib. Bununla belə, mənbə deyib ki, Baltikyanı respublikaların müstəqilliyinin tanınmasına dair SSRİ Dövlət Şurasının qərarına dair sorğuya "ölçülüb-biçilmiş" cavab verilməlidir. Çünki qaldırılan məsələlərin təkcə hüquqi yox, siyasi aspektlərinə də nəzər salmaq lazımdır.

**Rusiya Liberal-Demokrat Partiyasının sədri, Dövlət Dumasının üzvü Vladimir Jirinovski növbəti dəfə maraqlı təkliflə çıxış edib. Modern.az Rusiya mətbuatına istinadən xəbər verir ki, Jirinovskinin sözlərinə görə, ölkə Baş Prokurorluğu Baltikyanı dövlətlərdə (Latviya, Estniya və Litva) müstəqillik haqda keçirilən referendumu qanunsuz sayarsa, həmin ölkələrin Rusiyanın tərkibinə qatılması barədə səsvermə keçirilməlidir:** "Həmin respublikalar bu halda referendum keçirməli olacaqlar. Həmin referendumda bu ölkə sakinlərinin əksəriyyəti yenidən Rusiyanın tərkib hissəsi olmağa səs verəcəklər".


Rasim Musabəyov

Vladimir Jirinovskinin fikrincə, Rusiya Baltikyanı dövlətlərin müstəqilliyini tanımaqla həmin ölkələrdəki rusdilli əhaliyə qarşı haqsız davranıb. Qalmaqallı siyasətçi Baltikyanı dövlətlərin müstəqilliyinin tanınmasına görə Boris Yeltsin komandasının sağ qalan üzvlərinin mühakiməsini də təklif edib.

İyunun 30-da Rusiya Baş Prokurorluğu Baltikyanı dövlətlərin müstəqilliyinin tanınmasının qanuni olub-olmaması ilə bağlı araşdırmaya başlayıb.

**Məsələ ilə bağlı Litvanın müstəqilliyinin bərpa edilməsində çox əhəmiyyətli rol oynamış, tanınmış siyasətçi, ölkə Seyminin keçmiş sədri Vitautas Landsbergis mövqeyini açıqlayıb. Modern.az saytı Litva mənbələrinə istinadən xəbər verir ki, Landsbergis Rusiyanın bu addımlarına fikir verməməyə çağırıb. O bildirib ki, Litva Baltikyanı ölkələrin müstəqilliyini şübhə altına alan araşdırmalarla bağlı müzakirələrə vaxt ayırmamalıdır. Landbergis deyib ki, Moskva provokasiyaya əl atmaqla yeni mübahisələr yaratmaq niyyətindədir:** "Bizim siyasətçilərimiz, Seymin üzvləri də Rusiyanın qanuniliyi haqqında Litva Prokurorluğuna müraciət edə bilərdilər. Rusiya qanunsuz dövlətdir. Çünki o, çarı devirdi, uşaqları öldürdü. Belə dövlət olarmı?"

O qeyd edib ki, Rusiyanın indi belə bir addım atması Kremlin hansısa xüsusi planlarının olmasından xəbər verir.

Mixail Qorbaçovun sədrlik etdiyi Dövlət Şurasında Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibovun da adı var.

Məsələ ilə bağlı A.Mütəllibovun mövqeyini öyrənmək mümkün olmadı.

Ekspertlər hesab edir ki, Ukrayna hadisələrindən sonra müşahidə olunan proseslər Baltikyanı ölkələrə təcavüz planının anonsu sayıla bilər. Bu, həm də Qərbin Moskvaya rus qoşunlarını Donbasdan çıxartmaqla bağlı tələbinə sərt reaksiya, NATO-nun təhdidlərinə cavab da sayılır. Bəzi müşahidəçilər proseslərin dünya müharibəsinə apara biləcəyini də güman edirlər.

**Politoloq Rasim Musabəyov isə iddiaları cəfəngiyyat sayır:** "Landbergisin dediyi kimi, araşdırılırsa, onda gərək Nikolayın taxtdan salınıb güllələnməsi də araşdırılsın, ona hüquqi qiymət verilsin. Çünki hər şey ordan başlanıb. Rusiya ərazisində baş verənlərin hamısı qanunazidd, işğalçı hərəkatlar olub, qoy bunlara qiymət verilsin. Rusiya Baltikyanıya təcavüzə risk etməz. Bunlar NATO ilə müharibəyəmi başlayacaqlar? Əslində bunun arxasında yeganə məqsəd durub ki, Krımı qapazlamışam, onu keçin, yoxsa mən bir az da uzağa gedə bilərəm. Ancaq Qərb məsələnin üstündən keçən deyil". **R.Musabəyov deyir ki, Rusiya yaxın dövlətlər üçün müəyyən başağrısı yarada bilər:** "Amma NATO-nun himayəsi altında olan dövlətlərə qarşı heç nə edə bilməzlər. Lap Krımın Ukraynaya verilməsində qanunazidd nəsə olmuşdusa da, sonradan - 1978-ci ildə Sovet İttifaqının yeni konstitusiyası qəbul edildi, sonra referendumla Krım Ukraynanın ərazisi kimi təsdiqləndi. İndi durub bu barədə müzakirə açmaq cəfəngiyyatdır".

❑ **Vüqar MURAD**

# "Mərkəzi Bankın tələbi qanunsuzdur"

## Ekspert: "İstehlakçıların hüquqlarının müdafiəsi Mərkəzi Bankın səlahiyyəti deyil"

**Mərkəzi Bankın bank və bank olmayan kredit təşkilatlarından tələbi birmənalı qarşılanmır. Qeyd edək ki, Mərkəzi Bank komissiya haqlarının kreditin məbləğinin 1 faizini keçməməsini tələb edir. Əksər ekspertlər bunu Mərkəzi Bankın növbəti qanunsuz addımı kimi qiymətləndirirlər.**

**Hüquqşünas Əkrəm Həsənovun** sözlərinə görə, bu, gecikmiş olsa da, müsbət addımdır: "Düzdür, nəticədə kredit üzrə faiz dərəcələri artacaq. Amma hər bir halda faiz dərəcəsi müqayisə aparmaq üçün daha şəffaf və rahat göstəricidir. Lakin ənənəsinə sadiq qalaraq, Mərkəzi Bank bununla yenə də növbəti savadsız və qanunsuz sənəd istehsal edib. Əvvəla, məktubda "komissiya haqqı" ifadəsindən istifadə olunur. Halbuki "Banklar haqqında" Qanunda "komisyon haqq" termini işlədilir. Mərkəzi Bankda qanunları oxuyan var, ümumiyyətlə?

Həmin qanunun 36.6-cı maddəsinə əsasən isə hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin ödəniş şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir. Bu isə o deməkdir ki, Mərkəzi Bankın nəinki məktubla, heç normativ xarakterli aktı ilə də kredit təşkilatları üçün belə məhdudiyyət müəyyən etməyə səlahiyyəti yoxdur. Başqa sözlə, Mərkəzi Bank səlahiyyətlərini aşıb.

Nəhayət, məktubu "baş direktor" vəzifəsini tutan şəxs imzalayıb. "Mərkəzi Bank haqqında" Qanuna görə, onun rəhbərliyi İdarə Heyətidir. Buna görə də Mərkəzi Bankın adından onun sədri, uzağı İdarə Heyətinin üzvləri danışa bilər. Baş direktor kimdir axı? Orta səviyyəli menecer. Hansı haqla banklara göstəriş verir? Bu, özbaşınalıqdır".




**Ekspertin sözlərinə görə, bu qanunsuzluq və özbaşınalığın nəticəsi kimi kredit təşkilatları haqlı olaraq ona məhəl qoymaya bilər:** "Mərkəzi Bank məktubu pozan kredit təşkilatını cəzalandıra biləcək? Müştəri həmin kredit təşkilatından məhkəməyə şikayət edə bilməyəcək. Çünki məktubun heç bir hüquqi qüvvəsi yoxdur. Mərkəzi Bank əhalini, istehlakçını düşünməyə başlayıbsa, məqsədi həqiqətən insanlara kömək etməkdirsə, bu məhdudiyyətin qanunla müəyyən edilməsi təşəbbüsü ilə çıxış etməli idi. Ümumiyyətlə isə istehlakçıların hüquqlarının müdafiəsi Mərkəzi Bankın səlahiyyəti deyil. Öz işi ilə məşğul olsun: səmərəli pul siyasəti həyata keçirsin və kredit təşkilatlarına normal nəzarət etsin. Bunları etmir, özünə xas olmayan işlə məşğul olmağa can atır. İstehlakçıların hüquqlarının müdafiəsi İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin işidir. Lakin görünən odur ki, Mərkəzi Bank həmin xidmətlə rəqabətə girib. Nə vaxtdan və hansı məntiqlə ölkənin baş bankı bankların deyil, istehlakçıların marağını qoruyur?"

**Ekspert Rəşad Həsənov isə qeyd edir ki, əslində bankların bu günədək izlədiyi faiz siyasəti "parçala hökm sür" siyasəti idi və pulun satış qiyməti digər xərclər üzrə paylaşdırılaraq vətəndaşa daha kiçik göstərilirdi:** "Bu, daha çox komissiya xərclərində özünü göstərir. Məsələn, 1 il ərzində 24 faizlə 1000 manat kredit fərqli komisyon faizləri ilə, komissiya 8 faiz, cəmi ödəmə 1135 manat, əldə qalan pul 920 manat, xərc isə 215 manat təşkil edir. Komissiya 5 faiz olduqda, cəmi ödəmə 1135 manat, əldə qalan pul 950 manat, xərc 185 manat təşkil edir. Komissiya 2 faiz olanda, cəmi ödəmə 1135 manat, əldə qalan pul 980, xərc 155 manat olur. Komissiya 1 faiz olduqda isə cəmi ödəmə 1135, əldə qalan pul 990, xərc 145 manat olur. Başqa sözlə, birinci halda vətəndaş krediti 40, ikinci halda 35, üçüncü halda 28 və dördüncü halda isə 26 faizlə əldə etmiş olur. Yuxarıdakı misalda eyni faiz dərəcəsi, lakin fərqli komissiya xərcləri ilə təqdim olunan kredit şərtlərini təqdim etməklə vətəndaşın "xırda şeydir"- deyib keçdiyi komisyon faizlərinin əslində necə əhəmiyyətli olduğunu bir daha diqqətə çatdırmaq üçündür".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

# Talanmış bankla bağlı yeni sensasion xəbərlər

**Avropa Oyunlarından sonra Beynəlxalq Bank işi ilə bağlı iqtidarın yeni qərarlar verəcəyi xəbərləri təsdiqlənir. Məlumatlara görə, iqtidar Beynəlxalq Banka rəhbərliklə bağlı bütün namizədləri nəzərdən keçirir və bugünlərdə son qərarı verəcək. Məlum olub ki, İdarə Heyətinə rəhbərliyin “PAŞA Bank”ın sabiq rəhbəri Fərid Axundova həvalə edilməsi baş tutmayıb.**



# Beynəlxalq Bankda saxta “brilyant işi”

## Bankın filialından götürülən külli miqdarda kredit Artur Rəsizadənin qohumu olan nazir müavininin karyerasına son qoya bilər; ABB ilə bağlı araşdırma artıq iri fiqurlara çatıb...

Bankın rəhbərliyinin F.Axundova həvalə edildiyi Cahangir Hacıyevin istefasından bir neçə gün sonra-aprel ayının 2-dən yayılmışdı. F.Axundovun Beynəlxalq Banka sədr təyin edilməsi barədə xəbəri hətta “PASHA Bank”dan da təsdiqləmişdilər. Bu həftə isə “PASHA Bank”da Müşahidə Şurasının qərarı ilə bankın İdarə Heyətinin yeni sədri müəyyən olunub. Sədr vəzifəsi öncə bankın İdarə Heyətinin üzvü olmuş Taleh Kazımova həvalə edilib. Maraqlıdır ki, F.Axundov öz işini bankın Müşahidə Şurasının üzvü kimi davam edəcək. Bu isə o deməkdir ki, F.Axundovun Beynəlxalq Banka rəhbərlik edə biləcəyi iddiası nöqtələnib. Beynəlxalq Bankın səhmdarlarının toplantısının keçirilməsi artıq 4 aya yaxındır ki, yubanır. Qeyd edək ki, “Banklar haqqında” Qanunun tələblərinə əsasən, İdarə Heyəti sədrinin vəzifəyə təyin və azad olunması məsələləri səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aiddir. İdarə Heyətinin sədri vəzifəsini isə hələ də müvəqqəti olaraq Emil Mustafayev icra edir. O isə Beynəlxalq Bankda kredit qalmaqalı ilə bağlı başlanmış istintaqda əsas rol oynayır və borclu oliqarxlarla bağlı bank sənədlərinə məsuldur.

***

Beynəlxalq Bank işi ilə bağlı daha bir sensasion məlumat banka rəhbərlik uğrunda mübarizə aparanlardan birinin xanımının məlum millətdən olması ilə bağlıdır. Redaksiyamıza verilən xəbərə görə, araşdırma zamanı bankın rəhbərliyində çalışanlardan birinin elə bankda işləyən xanımının anasının məlum millətindən olduğu üzə çıxıb. O da məlum olub ki, həmin rəhbər şəxsin Moskvada yaşayan və bank sistemində çalışan ermənilərlə sıx əlaqələri varmış. Maraqlıdır ki, məhz banka rəhbərlik uğrunda mübarizə aparanlar sırasında həmin adamın da adı çəkilirdi.

Xəbərə görə, bankın filiallarında da bir müddətdir ki, ciddi araşdırma gedir. Məlumdur ki, əvvəllər Beynəlxalq Bankın baş direktoru olan, daha sonra bankın Dubay şöbəsinə rəhbərlik edən Adil Hüseynov *(“Qara polkovnik” Fətullah Hüseynovun oğlu)* ötən ay Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs edilib. A.Hüseynova Cinayət Məcəlləsinin 178.3.2-ci *(dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə)* maddəsi ilə ittiham verilib. A.Hüseynov Beynəlxalq Bankın Dubay şöbəsi üzərindən yüz milyonlarla dolların müxtəlif şirkətlərə kredit kimi verilməsini təşkil etməkdə ittiham olunur. Həmin kreditlər isə geri qaytarılmayıb. Bu məbləğ 318 milyon dollardır...

Bankın Gəncə filialında da araşdırma başlanması barədə xəbərlər yayılıb. Gəncə filialının müdiri Sabit Fətizadə maliyyə nazirinin birinci müavini İlqar Fətizadənin qardaşı oğludur. Xəbərlərdə deyilir ki, bank rəhbəri brilyanta oxşar daşları brilyant adı ilə rəsmiləşdirib, Beynəlxalq Banka girov qoyaraq qohumlarının adına külli miqdarda kredit götürüb *(qafqaznews.az)*. Bu yolla əldə milyonlarla pul cəmləşdirən Sabit Fətizadə Gəncə və Bakı şəhərlərində xeyli sayda mülk sahibi olub. Onun bu posta təyinatında əmisinin böyük rolu olduğu iddia edilir. Gəncə filialında yoxlama başladığı və yoxlamaya gələnlərin S. Fətizadəni yaxına buraxmadıqları da iddia olunur. İddialara görə, S.Fətizadənin Çexiyada hoteli belə var. Çexiyadakı hoteli ilə maraqlanmaq üçün filial müdiri hər üç aydan bir Avropaya gedirmiş. Bu iddialarla bağlı bankın Gəncə filialına zəng etsək də, heç kimlə əlaqə yarada bilmədik.

Qeyd edək ki, İlqar Fətizadənin kürəkəni Elmir Həbibullayev də Beynəlxalq Bankda fiziki şəxslərlə iş üzrə məsul baş direktordur. Eyni zamanda fiziki şəxslərə kreditlərin verilməsi onun nəzarəti altında həyata keçirilir. Elmir Həbibullayev Cahangir Hacıyevin ən yaxın adamlarından biri olub. Uzun müddət kredit komitəsinin sədri vəzifəsində çalışıb. İri kreditlərin rəsmiləşdirilməsi onun nəzarəti altında aparılıb. Cahangir Hacıyevin biznesinin kreditləşməsinin icrasına da birbaşa o nəzarət edib.

Nazir müavini İ.Fətizadənin adı son vaxtlar medianın gündəmə tez-tez gəlir. Hələ AXC iqtidarı dövründə - 1992-ci ilin aprel ayında maliyyə nazirinin müavini işləmiş İ.Fətizadə həmin ilin dekabr ayında Dövlət Sosial Müdafiə Fondu sədrinin birinci müavini vəzifəsinə təyin olunub. 1999-cu ildən isə maliyyə nazirinin birinci müavinidir.

Heydər Əsədovun kənd təsərrüfatı naziri təyinatından sonra İ.Fətizadə Hesablama Palatasının sədri olmaq istəyirmiş. Amma maliyyə naziri Samir Şərifova yaxınlığı ilə tanınan nazir müavininin namizədliyinə yuxarıdan “yox” deyildi. Və bu vəzifəyə Vüqar Gülməmmədov təsdiqləndi. İ.Fətizadənin baş nazir Artur Rəsizadənin yaxın qohumu olduğu barədə də xəbərlər var. Onun məhz A.Rəsizadənin dəstəyi sayəsində yüksək vəzifə tutduğu deyilir.

Belə görünür ki, Beynəlxalq Bank işi artıq iri fiqurlara çatıb və araşdırmaların sonunda bir neçə nəfər vəzifəsini, hətta azadlığını belə itirəcək...

❑ **“Yeni Müsavat”**

# Ankara seçim qarşısında



**Kənan RÖVŞƏNOĞLU**

**Dünyanın nəzərləri Türkiyəyə dikilib. Rəsmi Ankara Suriyaya ordu yeritməyə hazırlaşır. Hazırda bununla bağlı gərgin siyasi müzakirələr davam edir, hökumət ordunu, siyasi gündəmi və ictimai rəyi bu prosesə hazırlayır. Eyni zamanda ordu qüvvələri ehtimal olunan müdaxilə bölgəsində cəmləşdirilir.**

Plan isə artıq məlumdur. Türkiyə ordusunun bir neçə briqadası tank və zirehli texnikanın köməyi ilə Suriya ərazisinə daxil olub sərhəd boyunca 110 km uzunluğunda və 10-15 km enində bölgəni nəzarət altına alacaq. Ərazidə qaçqın düşərgələri, müxalif qrupların təlim mərkəzləri qurulacaq. Artıq Britaniya mətbuatı müdaxilənin vaxtını da yazıb: cümə günü.

Bu, əslində Yaxın Şərqdə çox ciddi və hay-küyə səbəb olacaq hadisədir. İlk dəfə Suriya ərazisinə hərbi müdaxilə baş verəcək və ölkənin əraziləri faktiki olaraq başqa ölkənin silahlı qüvvələrinin nəzarəti altına düşəcək. Bu, ciddi hərbi-siyasi yükü olan bir hadisə, eyni zamanda Türkiyə üçün riskli addımdır. Əcəba, Türkiyə hakimiyyətini bu addıma getməyə vadar edən səbəb və ya səbəblər nədən ibarətdir ki, hökumət bu riski gözə alır?

Yeri gəlmişkən, Türkiyə ordusu hökumətdən fərqli olaraq, bu müdaxiləyə könülsüzdür. Çünki ordu generalları yaxşı anlayır ki, indi Suriyanın şimalına qüvvə yeridib böyük bir ərazini nəzarətdə saxlamaq çətin olmaqla yanaşı, faktiki olaraq “qarışqa yuvasına çöp uzatmaqdır”. Hazırda o bölgədə fəaliyyət göstərən qruplaşmaların sayı-hesabı itib. Belə bir yerə girib bir neçə ay qalmaq çox risklidir və şiddətli savaşa səbəb ola bilər.

Türkiyə hökuməti isə qərarlıdır. Təbii ki, hazırkı AKP hökuməti də bu riskləri bilir və gözə alır. Ankaranın bu riskləri gözə alaraq Suriyaya müdaxilə etməsinin arxasında çox ciddi səbəblər var. Orada hesab edirlər ki, Suriyanın şimalının, Türkiyə sərhədlərinin kürdlərin nəzarəti altına keçməsi Böyük Orta Şərq planının bir hissəsidir və Şimali İraq enerji dəhlizinin Türkiyənin kənarından keçməklə kürd əraziləri ilə Aralıq dənizinə çıxmasına xidmət edir. Kürdlər artıq Əziz bölgəsinə qədər irəliləyib və Hatayın sərhədlərinə qədər gəlib çatıblar. Bu prosesə ABŞ hərbi koalisiyası da ciddi dəstək verir *(görünür, bu dəstək də Ankaranı narahat edir)*.

Ankarada hesab edirlər ki, Suriyanın Türkiyə ilə sərhəd bölgələrinin kürdlərin nəzarətinə keçməsi və kürd əhalinin sayının süni şəkildə çoxalması Türkiyəyə qarşı təhdiddir. Çünki bu, faktiki olaraq sərhəddə ikinci kürd administrasiyasının yaranmasıdır və nəzərə almaq lazımdır ki, sərhədin Türkiyə tərəfində də kürdlər yaşayır.

Türkiyəni hərəkətə keçirən ikinci ciddi səbəb sərhədlərin İŞİD və kürdlərin əlinə keçməsi nəticəsində Ankaranın faktiki olaraq, Yaxın Şərqə quru yolunun bağlanmasıdır. Söhbət Suriyada həyata keçirilən böyük fəaliyyətlərdən gedir. Sərhədlərin kürdlərin nəzarətinə keçməsindən sonra Türkiyədən suriyalı müxaliflərə silah, maddi və digər yardımların göndərilməsi çətinləşəcək, daha dəqiqi, kürdlərin icazəsi ilə mümkün olacaq.

Yeri gəlmişkən, bunu amerikalılar da etiraf ediblər. Hər iki amil AKP hökuməti üçün ciddi önəm kəsb edir və Ankara daha artıq riski gözə almaq istəmir.

Maraqlıdır ki, Türkiyənin NATO müttəfiqləri bu əməliyyata dəstək vermir, ABŞ hökuməti isə ehtiyac görməsə də, mane olmaq fikrində də deyil. Yalnız Rusiya və İranın etiraz etdiyinə dair fikirlər var. Rəsmi Dəməşq də hələlik bu məsələ ilə bağlı mövqeyini açıqlamayıb.

Qeyd edək ki, Bəşər Əsəd ordunu iki il əvvəl bu bölgədən çıxarmaqla müxaliflərin böyük daxili savaşına səbəb olmuşdu. Gözlənilən odur ki, Dəməşq Türkiyənin addımını pisləyəcək, ancaq əslində gəlişmədən o qədər də narahat deyil. Çünki Türkiyə bu addımı ilə diqqətləri və qəzəbi öz üzərinə çəkəcək, faktiki surətdə “Suriya bataqlığına” düşəcək. Hələlik açıq etiraz edən yalnız kürdlərdir. Kürd liderləri bəyan ediblər ki, Türkiyə ordusu müdaxilə edəcəyi təqdirdə İŞİD-ə qarşı olduğu kimi müqavimət göstərəcəklər. Ərəb ölkələri isə bu prosesdən razı və məmnun görünürlər.

Beləcə, durum xeyli dərəcədə mürəkkəb və risklidir. AKP hökumətinin hazırkı siyasi kursu nöqteyi-nəzərindən hərbi müdaxilə qaçılmazdır. Lakin əməliyyatın özü də çox böyük risk daşıyır. Bu vəziyyətdə ordunun əməliyyatdan imtina etməsi və yeni hökumət qurulmasına qədər gözləməsi gündəmə gələ bilər. Bu mənada vəziyyətdən çıxış yolu Türkiyə hökumətinin bütövlükdə Suriya siyasətini dəyişməsidir. Bunun üçünsə yeni hökumətin qurulmasını gözləmək lazım gələcək.

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015



# Bu millət bu qədər istedadlıdırsa...

Hüseynbala SƏLİMOV

**Doğrudan da ağla gəlməyən iş baş verdi. İlk Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilməsinin özü böyük bir hadisə idi. Amma komandalar arasında da ikinci yerdə olmaq... Güman ki, bunu heç kim gözləmirdi...**

Həmişə yazmışıq ki, xalqları müqayisə etməyin, birinin o birindən üstün olduğunu demək bizim şakərimiz deyil. Amma, qardaş, etiraf etməli olursan ki, bu millət həqiqətən də digər müsəlman millətlərindən ən azı bir boy ucadır...

Qürur duyulası keçmiş, orijinallıq və həm də müasirlik... Həm açılış, həm də ki, bağlanış mərasimlərinin içində bunların hamısı vardı...

Qərəz, bu millətin istedad sahibi olmasına daha bir şübhə qalmamalıdır. İnsanlar çox gözüaçıq və diribaşdır. Yeniliyi götürməyə meyllidir. Sadəcə, onlar üçün şərait yaratmaq lazımdır...

Bir qədər bundan əvvəlin söhbətidir. Bir ara azərbaycanlı gəncləri beynəlxalq fənn olimpiadalarına hazırlamaq üçün yaxşı təcrübə toplanmışdı... Gənclər də biri-birinin ardınca medallar qazanırdı. Həmin işlə məşğul olan müəllimlərdən biri mənə demişdi ki, bu, bəzi millətləri yaman təşvişə salıbmış...

Qərəz, bu millətin xüsusi istedad sahibi olmasına zərrə qədər də şübhə yox. İndi qalır həyatın davamını yaşamaq...

Amma burada barmağını dişləməli olursan. Ona görə ki, belə fikirlər də səslənir ki, bu gözəl idman oyunları bir az sonra olacaq əsl "oyun"un yanında bir heçdir...

Yox, gərək, hər şeyi sakitcə, aramla izah edim. Bir azacıq bundan əvvəl dedik ki, bu millət böyük istedad sahibidir. Amma qarşıdan parlament seçkiləri gəlir və ümid edirik ki, bu, da tamam yaddan çıxmayıb...

Düşünürük ki, millətin şəninə təriflər deyənlər bu parlament seçkisində ona öz seçimlərini etməyə imkan verəcəkmi?

Bax, sual da elə budur. İndi baxın. Bu qədər iş görülüb-böyük Avropa oyunları keçirilib, böyük qələbə qazanılıb. Bunu heç kim inkar edə bilməz və telekanallar da səhərdən-axşama qədər təbliğ edirlər...

Bir sözlə, hakimiyyətin aktivinə böyük bir xal yazıldı. Elə bu oyunlarsız da görülmüş işlər az deyildi. Olkə əla olmasa da, babat yaşayır və bütün əvvəlki proqnozlara rəğmən elə bir böhran-filan da görünmür, hakim partiya da bir an dayanmır, daim nəsə edir...

Bütün bunlar həm də o demək olardı ki, artıq əsl seçkilər keçirmək üçün də vaxt yetişib. Nədən bu qədər işin müqabilində hakim partiya özünə, öz gücünə inanmasın?..

Etiraf etmək lazımdır ki, onların da tərəfdarları çoxdur. Demək ki, hakimiyyətin heç bir sosial bazası yoxdur, bu, həqiqəti və reallığı tamamilə və özü də kobud şəkildə inkar etmək olardı.Var, onların da xeyli tərəfdarları və təəssübkeşləri var...

Bəs indi necə olacaq? Bəli, onu da deyim ki, müxalifət partiyaları həm obyektiv, həm də subyektiv səbəblərdən çox zəifləyib, onlar daha əvvəlki kimi güclü və mütəşəkkil deyillər...

Bəlkə də hakimiyyət bunu əvvəlcədən proqnozlaşdıra bilsəydi seçkiləri proporsional sistem əsasında keçirərdi. Amma ölkədə seçki majoritar sistemlə keçirilir...

Bəs onda hakim partiya nədən ehtiyat edir? Majoritar sistem müstəqil namizədlər üçün yaşıl işıq yandırır. Düşünürük ki, hakimiyyət həm də elə bu səbəbdən əsl ədalətli seçki keçirməkdən ehtiyat edir, çünki onu təkcə müxalif namizədlər qorxutmur, həm də müstəqil düşüncəli insanlar çəkindirir...

Bu, elə bir sistemdir ki, heç kim düşünməməlidir ki, o, özü seçilib... Ona görə ki, necə deyərlər, özü seçilən adamın dili uzun olur, o, müstəqil qərarlar qəbul etməyi sevir və özünü müstəqil fərd kimi aparır...

Deməli, "təhlükəli" təkcə müxalif adamlar deyil, həm də müstəqil adamlardı.

Ona görə də belə hesab edirik ki, açıq-aşkar üstünlüyünə baxmayaraq hakim partiya yenə də demokratik seçki keçirməyəcək... Mən bizim parlamentə fikir vermişəm. Orada hətta hakimiyyətin öz deputatları qorxa-qorxa, çox ehtiyatla danışırlar, çünki "qara siyahı"ya düşməkdən ehtiyat edirlər...

Deməli, bu millət çox istedadlı olsa da, hələ uzun müddət onun seçiminə güvənilməyəcək. Hələ uzun müddət ona seçmək və seçilmək imkanı verilməyəcək. Bəs onda nə alınır? Bir tərəfdən deyirik ki, bu millət böyükdür. O biri tərəfdən də ona etibar etmirik...

Məsələ də elə bundadır. Bu millətin istedadı təkcə başqa millətləri ehtiyatlandırmır, elə özümüzünkülər də ondan ehtiyat edirlər. Ona görə ki, bu ölkə hələ istedadlıların idarə etməsi üçün nəzərdə tutulmayıb...

# "Oliqarxgeyt" işinə görə tutulanlara tibbi yardım göstərilməsi yasaqlanıb?

## Kamandar Nəsibov: "Bank işi ilə bağlı tutulanların heç birini "sançast"a qoymurlar»

**Bakı İstintaq Təcridxanasında "Oliqarxgeyt" işinə görə saxlanılan iş adamları və bankirlərin tibb məntəqəsinə köçürülməsinə icazə verilmir. Bu haqda "Yeni Müsavat"a vəkil Kamandar Nəsibov məlumat verib.**

Bu il mayın 15-də həbs edilən Beynəlxalq Bankın Dubay filialının rəhbəri Adil Hüseynovun vəkili olan Kamandar Nəsibov müvəkkilinin həbsindən az əvvəl cərrahiyyə əməliyyatı olduğunu deyib. Bildirib ki, A.Hüseynov da daxil olmaqla, hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan iş adamları və bankirlərin tibb məntəqəsinə köçürülməsinə istintaq icazə vermir: "Bank işi ilə bağlı tutulanların heç birini "sançast"a qoymurlar. Deyirlər ki, o kateqoriyadan olan tutulanları "sançast"a qoymamaq tapşırığı var. Formal cəhətdən ora Penitensiar Xidmətə tabedir, amma faktiki olaraq istintaqdan verilən tapşırığa əsasən bu iş üzrə tutulanları, Adil Hüseynovu tibb məntəqəsinə köçürmürlər".

**K.Nəsibov Adil Hüseynovun həbsini qanunsuz sayır. Deyir ki, onun hərəkətləri dələduzluq hərəkətlərini əhatə etmir. İrəli sürülən ittihamın, orada göstərilənlərin heç bir hüquqi əsası yoxdur:** "İttiham ondan ibarətdir ki, guya etibarından sui-istifadə edərək, aldatma yolu ilə böyük məbləğdə, külli miqdarda pulları mənimsəyiblər. Bu da heç cür dələduzluq hərəkətlərini əhatə etmir. Hazırda Adil Hüseynovla bağlı hər hansı bir istintaq hərəkəti də yoxdur. Adil Hüseynovun dediyinə görə, ona deyirlər pulu qaytar. Ona qarşı irəli sürülən ittihamda söhbət 319 milyona yaxın məbləğdən gedir. Onun da həmin pulu qaytarmağa imkanı yoxdur, o pulu haradan qaytarsın? O pulun üzünü görməyib. Pullar hamısı köçürmə yolu ilə gedib. Pullar Beynəlxalq Bankdan kreditlər şəklində verilən şirkətlərin adına olan bank hesablarına köçürülüb, oradan da gedib avadanlıq alınmağa, digər xərclərə, işçilərin maaşı və sair məsələlərə. Dubayda zavodun tikilişi, tekstil fabrikinin tikilişi ilə bağlı olan məbləğlərdir. Onu qaytarmaq qeyri-mümkündür. Zavodlar orada durur. Sahibi gedib satıb o, pulu qaytara bilər. Adil Hüseynov zavodların sahibi deyil ki, gedib satıb gətirib pulu ödəsin" deyə, vəkil bildirib.



Kamandar Nəsibov

**Vəkil Dubayda inşa olunan metaltökmə zavodunun sahibinin kimliyini də açıqlayıb:** "Həmin zavodun hazırda 2 sahibi var. Zavodun 50 faizi Rusiya vətəndaşı Hüseyn Marayevə məxsus "Golden Bat" şirkətinə, digər 50 faizi isə Fransa vətəndaşı Xəqani Bəşirovun Böyük Britaniyada qeydiyyatdan keçmiş "Camelot Oil and Gaz" şirkətinə məxsusdur".

**K.Nəsibov deyir ki, iş üzrə qaytarılmayan problemli kreditlərin ümumi məbləği 6 milyard yarımdır. Həmin məbləğ dairəsində adamlar çağırılır, saxlanılır, həbs olunur:** "Bu gün istintaqın əlində də tam şəkildə sənədlər yoxdur. Onlara Beynəlxalq Banka hazırda rəhbərlik edən Emil Mustafayev tərəfindən o siyahılar verilir, siyahılarda göstərilir ki, filankəs filan şirkətə filan qədər məbləğ alıb. Eyni zamanda bir məsələni də nəzərinizə çatdırmaq istəyirdim ki, orada Adil Hüseynovla bağlı yalnız bir şirkətdir. O orada bir şirkətin sahibi kimi keçir, o da Beynəlxalq Bankın rəhbərliyinin verdiyi göstəriş əsasında həmin şirkət açılıb və kredit ayrılıb. Digər 5-6 şirkətin isə ümumiyyətlə Adil Hüseynova aidiyyəti yoxdur. Yalnız bir şirkətə 20 milyondan bir az artıq buraxılan məbləğ Adil Hüseynovun sahibliyinə gedir. Hüquqi cəhətdən konkret olaraq Adil Hüseynovla bağlı ittiham tamamilə qanunsuzdur. Qanuni şəkildə baxanda həmin cinayət təqibinə xitam verilə bilər".

❑ E.MƏMMƏDƏLİYEV

# İş adamının nazirlə bağlı iddiasına reaksiya gəldi

## KNT rəsmisi: "Nazirin bacanağının qardaşı..."

Azərbaycan Respublikası
Kənd Təsərrüfatı Nazirliyi

**Azərbaycanlı iş adamı Dönməz Məmmədov Gürcüstanda, Rustavi şəhəri yaxınlığından keçən yolun kənarında aclıq aksiyasını davam etdirir. İyulun 1-də redaksiyamıza müraciət edən D.Məmmədov nəqliyyat naziri Ziya Məmmədova müraciət edib. O, üzləşdiyi qanunsuzluğa son qoyulmasını istəyir:**

"Mənə qarşı haqsızlığa son qoyulsun. Mən 2000-ci ildən sərnişindaşıma ilə məşğul olmuşam. Bu illər ərzində Nəqliyyat Nazirliyinin işçilərinin bütün tələblərini yerinə yetirmişəm. Bu günə qədər Nəqliyyat Nazirliyinin heç bir işçisi mənim haqqımda pis nə isə deyə bilməz". Qeyd edək ki, iş adamı iyunun 29-dan aclığa başlayıb. Bu azərbaycanlı iş adamının Gürcüstanda keçirdiyi sayca ikinci aclıq aksiyasıdır. O, Nəqliyyat Nazirliyinin Bakı Şəhər Nəqliyyat Departamentinin (BŞND) rəisi və müavinləri tərəfindən aldadılmasına aclıq etməklə etiraz edir.

D.Məmmədov "Yeni Müsavat"ın əməkdaşına deyib ki, sahibi olduğu "Amal-D" MMC şirkətinə məxsus 509 saylı marşrutların bərpa olunmasını tələb edir. Şirkətə məxsus digər marşrut üzrə hərəkətdə olan "Daewoo" markalı 17 avtobus bu ilin mayında xətdən çıxarılıb və Bakı Şəhər Nəqliyyat Departamentinin cərimə meydançasına aparılıb. Uzun müraciətlərindən sonra iş adamı aclığa başlayıb və 501 saylı marşrutun işləməsinə icazə verilib.

Ona 509 saylı, Sumqayıt-Binə ticarət mərkəzi xətti üzrə olan marşrutun Avropa Oyunları qurtarana yaxın, iyunun 20-də açılacağına söz verilib. Lakin marşrutun açılışına icazə verilməyib. Hazırda Rustavi yolunun kənarında aclığa başlayan sahibkar deyir ki, rəhbəri olduğu MMC-yə Nəqliyyat Nazirliyi sərnişindaşıma ilə məşğul olmaq üçün 2017-ci ilə qədər lisenziya verib. Buna baxmayaraq, BŞND-i marşrut üzrə hərəkət etməli olan avtobuslara fərqlənmə nişanı vermir və xəttə buraxmır. D.Məmmədov deyir ki, avtobuslar xəttə buraxılmasa, Tiflisdə Azərbaycan səfirliyinin önündə və ya Azadlıq meydanında özünü yandıracaq.

D.Məmmədov ondan alınan 509 saylı marşrutun kənd təsərrüfatı naziri Heydər Əsədovun bacanağının qardaşı Kamil Sadayoğluna tapşırıldığını demişdi.

Redaksiyamızla əlaqə saxlayan Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev iş adamının dediklərinin həqiqət olmadığını bildirdi: "Dönməz Məmmədovun dedikləri dediklərinin həqiqətdən uzaqdır. Cənab nazirin 2 bacanağı var, onlardan birinin heç qardaşı yoxdur, Qobustanda kənddə yaşayır. O biri bacanağının qardaşı isə rayonda maliyyə idarəsində xırda bir vəzifədə işləyir".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

**"Bizim müstəqilliyin qazanılmasından sonra şimal qonşumuzla bağlı bütün layihələrdə "xatalılıq riski" mövcud olub, bundan sonra da olacaq. Güclülərlə qonşu olmanın xatası da var, faydası da. Biz faydanın çox olması barədə düşünməliyik, çünki zərər onsuz da bizim iradəmizdən asılı olmayaraq həmişə perspektivdə durur".**

# "Biz Avropa nikahında yoxuq, ancaq Avropa Oyunlarında həmişə olacağıq"

## Fazil Mustafa: "Deyir ki, sənin evinə girsə də, öldürsə də, talan etsə də, mənim xətrimə dost olmalısan"



Fazil Mustafa

**Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa** "Yeni Müsavat"a açıqlamasında belə deyib. O, Avropa Oyunlarının bağlanış mərasimində Moskvanın Rusiya Federasiyası Dövlət Dumasının sədri Sergey Narışkin səviyyəsində təmsil olunmasına münasibət bildirib. Bəzi ekspertlərin fikrincə, bu yarışlara münasibətdə Moskva Azərbaycana "ən sədaqətli" dövlətlərdən biri olduğunu nümayiş etdirməklə əslində Kreml Azərbaycana qarşı "xatalı layihələr"in olduğunu nümayiş etdirdi.

**F.Mustafa isə deyir ki, Rusiya Dağlıq Qarabağın işğalında Ermənistana dəstək verməklə, onsuz da bizə xatasını yetirib:** "Bundan betərinin yaşanmaması üçün daha tarazlı və avantüraya imkan yaratmayan bir siyasət izləməliyik. Fikrimcə, Avropa Oyunlarında Rusiyanın ən çox medal qazanaraq qalib gəlməsinin müsbət tərəfləri də oldu. Rusiya ictimai rəyinə açıq və rəmzi mesaj verildi ki, Ermənistanı dəstəkləmək əvəzinə Azərbaycanla daha səmimi dostluq qursanız, həm evinizə xeyli qızıl aparacaqsınız, həm də daha xoş ovqat qazanacaqsınız. Hər halda, Rusiya iqtisadi sanksiyaların pərtliyini keçici də olsa, Bakıda unuda bildi. Sədaqət isə siyasi və ya diplomatik termin deyil, sırf insan münasibətlərinin dəyər komponentidir".

**"Avropa Oyunları Azərbaycanın Avropaya yaxınlaşması, Azərbaycanın müsbət planda tanıdılması, cəmiyyətin avropalaşması üçün nə dərəcədə rol oynadı" - sualına cavabında deputat bildirdi ki, Avropa Oyunları əslində hədəf olaraq Azərbaycanın Avropaya yaxınlaşması kimi düşünülməməlidir:** "Biz Avropaya yaxınıq, neçə ilin qonşusu sayılırıq, arabir bir yerdə yemək də yeyirik. Ancaq səmimi dostluq məsələsi bizdən asılı deyil, adamlar özləri münasibətin məsafəsini təyin ediblər və dəyişmək istəmirlər. Avropa deyir ki, Ermənistanla, Gürcüstanla səmimi dostam, səninlə də onlarla dost olduğun təqdirdə dostluğumuz alınar. Deyir ki, sənin evinə girsə də, öldürsə də, talan etsə də, mənim xətrimə dost olmalısan. Sanki bu, Avropa Birliyinin Ermənistana sevgisi iki eyni cinsdən olanların Avropada hazırda dəbdə olan nikahına doğru aparır. Ona görə də biz Avropa nikahında yoxuq, ancaq Avropa Oyunlarında həmişə olacağıq. Bu oyunlar Azərbaycan cəmiyyətinin səfərbərlik imkanlarının, Qafqazda idman sferasında üstünlüyünün, iri beynəlxalq layihələrdə çəkisinin testi idi və məncə, bu testdən uğurla keçə bildik. Ölkənin imkanlarının tanıdılması, erməni arealı üzərində psixoloji üstünlük kimi faktorları da burada qeyd etmək olar. Cəmiyyətin avropalaşmasına gəldikdə, bu bir qədər natamam gözləntidir. Məncə, hər bir azərbaycanlı üçün bayrağın simvolikasında yer alan hüdudlarda milliləşmək, islamlaşmaq və avropalaşmaq -modernləşmək - daha balanslı bir inkişaf olardı. Bunlardan heç biri digərinin hüdudlarına girməməlidir".

**F.Mustafa Ermənistanda baş verənlərin Azərbaycana təsirləri haqda fikirləri şərh edərkən bunları bildirdi:** "Ermənistandakı iqtisadi tənəzzül əhalinin sosial tələblərində dirənişi xeyli barışmaz məcraya yönəltməkdədir. Millət uzun müddət müharibə eyforiyası ilə yaşaya bilməz. Qarnını doyuzdura bilməyəcəksənsə, hətta elektrik pulunu ödəyə bilməyəcəksə, artıq geriyə yol saxlamadan dirənişə keçəcəkdir. Fikrimcə, biz Ermənistandan əsən küləyə deyil, Rusiyadan əsən küləyin fəsadlarına daha çox diqqət yetirməliyik".

❑ **Cavid TURAN**

# "Avropa Birliyi ilə Azərbaycan arasında münasibətlər dondurulub"

## Elxan Şahinoğlu: "İndi ya Şərqə, ya da Rusiyaya doğru getməliyik, Şərq mümkün deyil, Rusiya isə bizim üçün təhlükəlidir..."

**2008-ci ilin mayında Avropa Birliyinin üzvləri İsveç və Polşa tərəfindən irəli sürülmüş "Şərq tərəfdaşlığı" Proqramı gözlənilən nəticələri vermədi. Xüsusilə bu ilin mayında yaşananlar qənaətimizin sübutu sayıla bilər.**



Əvvəlcə mayın 7-də "Şərq tərəfdaşlığı" ölkələrinin ticarət nazirlərinin birinci qeyri-rəsmi görüşündə Azərbaycanın müavin səviyyəsində təmsil olunması, ardınca mayın 21-də Riqada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində İlham Əliyev və Belarus prezidentinin iştirak etməməsi bəzi suallara aydınlıq gətirdi.

Altı postsovet ölkəsinə *(Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna)* yönəlik "Şərq tərəfdaşlığı" Proqramına daxil olan ölkələrdən üçünün Avropa Birliyi ilə assosiativ sazişə imza atması, ölkəmiz də daxil olmaqla, digərlərinin imtinası bir çox həqiqətləri üzə çıxardı.

**Proqram çərçivəsində baş verənləri "Yeni Müsavat"a şərh edən politoloq Elxan Şahinoğlu hesab edir ki, nəzərdə tutulan ideyalar reallaşmayıb:** "Əslində bu ideya çox maraqlı idi. Məqsəd o idi ki, birliyə daxil olmayan ölkələri prosesə cəlb etsinlər. Aydın idi ki, onların üzv olmaq şansları yox idi. Belə şəraitdə "Şərq tərəfdaşlığı" Proqramı yarandı. Sonralar bu proqram daha da inkişaf etdi. Assosiativ saziş ideyası da olduqca vacib məsələ idi. İmzalayan hər bir ölkənin üzərinə öhdəlik götürməsi əlaqələrin güclənməsi baxımından önəmli idi. Çox təəssüflər olsun ki, bu ideyalar həyata istənilən qədər vəsiqə qazanmadı. Vaxtilə Avropa Birliyinin "Qonşuluq" proqramı adlı başqa bir ideyası var idi. Bu ideya da əslində reallaşmadı. Sanki "Şərq tərəfdaşlığı"nı da bu tale gözləyir. Hətta sənədi imzalayan Ukrayna, Gürcüstan və Moldova belə Avropa Birliyi ilə istədikləri əməkdaşlığı edə bilmir. Avropa Birliyinin daxilində vəziyyət o qədər çətindir ki, "Şərq tərəfdaşlığı"na daxil olan ölkələrə istədiyi dəstəyi verə bilmir. Merkel açıq şəkildə deyib ki, siz Avropa Birliyinin üzvü olmağa ümid etməyin. Yunanıstanda baş verən hadisələr gözümün qarşısındadır. Avropa Birliyi oranı belə xilas edə bilmir. Öz üzvü olan ölkəni xilas edə bilməyən qurum Gürcüstan, Moldova və Ukraynaya necə yardım edə bilər? Ona görə də sanki "Şərq tərəfdaşlığı" Proqramı arxa plana keçib. Bu proqramın özünə də maraq azalacaq. Qərbin Ukraynanı çətin durumdan çıxaracağı gözlənilirdi. Amma əksi baş verdi. Avropa Birliyi Ukraynanı ağır böhrandan çıxara bilmədi. Krım hadisələri, separatçılıq meyllərinin orada baş verməsi çox şeyi sübut etdi. Bir sözlə, "Şərq tərəfdaşlığı" və bağlanan assosiativ sazişlər düşünülən nəticələri vermədi".

**Politoloq onu da bildirdi ki, Azərbaycan assosiativ sazişə imza atmalı idi:** "Əvvəldən bildirirdim ki, Azərbaycan sazişə imza atmalıdır. İstək və şərtlərimiz ola bilərdi. Onları da ortaya qoyardıq. Amma hakimiyyət fərqli yanaşdı. Fərqli bir sənəd istədilər. Bunu böyük enerji resurslarının olması ilə əlaqələndirirdilər. Maraqlı olan odur ki, təklif edilən strateji sənəd haqqında heç bir iş görülmür. Sanki Avropa Birliyi ilə Azərbaycan arasında münasibətlər dondurulub. Bu da bizə xeyirli deyil. Bəzi məsələlərdə ortaq məxrəcə gələ bilmədiyimizə görə tədricən Avropadan uzaqlaşırıq".

**Elxan Şahinoğlu Avropa Birliyinin iştirakçı olmayan dövlətlərə verdiyi mesajlara da aydınlıq gətirdi:** "Birlikdə demokratiya hökm sürdüyündən, heç bir ölkəni zorla daxil etmək istəmirlər. Təzyiq altında saxlamaq Rusiyanın siyasətidir. Təzyiq altında Ermənistanı Avrasiyaya üzv elədi. Avropa Birliyi bu məsələlərə fərqli yanaşdı. Hər bir ölkənin iştirak etməməyin öz seçimi olduğunu bildirdi. Biz seçimlərimizi dəqiqləşdirməliyik. Avropanı seçmədik. Çünki sənədə imza atmadıq. İndi ya Şərqə, ya da Rusiyaya doğru getməliyik. Şərq mümkün deyil. Çünki sazişə imza atmasaq da, Azərbaycan Avropa dəyərlərini daha yüksək tutur. Qaldı Rusiya. Bu bizim üçün təhlükəlidir. Çünki Azərbaycan indi anlayıb ki, Avrasiya və Gömrük İttifaqının üzvü ola bilməz. Orada Ermənistan var. Bu dövlətlə eyni məkanda inteqrasiya mümkün deyil. Bunun yeganə çıxış yolu Dağlıq Qarabağ probleminin həllidir. Bu da yaxın zamanlarda mümkünsüz görünür. Onda nə edək? Biz seçim edib, mövqe ortaya qoymalıyıq. Balanslaşmış siyasət o demək deyil ki, hansısa istiqamətdən qopmalısan. Bütün istiqamətlərdə fəal olmalısan. Assosiativ sazişə Azərbaycan imza atsaydı, o demək deyildi ki, Rusiya ilə münasibətlərə son qoymalı idi. Qonşuluq siyasəti davam etdirilməli idi. Demək, hələ qərar verilməyib ki, hansı istiqamət bizə uyğundur".

❑ **Cavanşir ABBASLI**



# QHT Şurası ilin II rübünə yekun vurub

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin müşavirəsi keçirilib. Toplantıda çıxış edən Şura sədri, millət vəkili Azay Quliyev rəhbərlik etdiyi qurumun 2015-ci ilin ikinci rübü ərzindəki fəaliyyətini təhlil edərək prezident İlham Əliyevin göstərdiyi inam və etimadı doğrultmaq üçün bütün potensiallarını səfərbər etdiklərini bildirib.**

Azay Quliyev I Avropa Oyunlarının keçirilməsində Şuranın da yaxından iştirak etdiyini və bu istiqamətdə 30-dək QHT-nin layihəsinin dəstəkləndiyini deyib. Şuranın dəstəyi ilə beynəlxalq media qurumlarında I Avropa Oyunlarının təbliğinə həsr olunan çoxsaylı materiallar yayımlanıb. Eyni zamanda Şura "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda Ermənistanın Azərbaycana hərbi təcavüzü haqqında elektron məlumat lövhəsi və monitor yerləşdirib. Şuranın Qarabağ haqqında hazırladığı yüzlərlə broşur I Avropa Oyunlarının keçirildiyi dövrdə xarici ölkə vətəndaşlarına paylanıb. Azərbaycanın mühüm beynəlxalq idman tədbirinə müvəffəqiyyətlə ev sahibliyi etməsinin çoxsaylı xarici ekspertlər tərəfindən də etiraf olunduğunu deyən Şura sədri müstəqilliyini yenicə qazanmış ölkə üçün böyük uğur olduğunu qeyd edib : "Azərbaycan bir daha bütün manelərə, qarayaxma kampaniyalarına baxmayaraq beynəlxalq aləmə böyük miqyaslı layihələri qüsursuz şəkildə icra etməyə qadir olduğunu göstərdi. Cənab prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın böyük əməyinin nəticəsində baş tutan I Avropa Oyunları olimpiya hərəkatına və idman leksikonuna "Azərbaycan standartı" anlayışını gətirmiş oldu. Dövlətimizin beynəlxalq nüfuzunu yüksəltdiyinə görə cənab prezidentə və Mehriban xanım Əliyevaya Şuranın və QHT sektorunun adından dərin minnətdarlığımı bildirirəm".

2015-ci ilin ikinci rübündə cari ilin I maliyyə müsabiqəsinin nəticələrinin elan edildiyini deyən Şura sədri layihələrin icrasının effektivlik dərəcəsinin ölçülməsi və onun analizinin yeni meyarlarla aparılması ilə bağlı katiblik əməkdaşlarına tapşırıqlarını verib.

Şura katibliyinin icraçı direktoru Fərasət Qurbanov qurumun bütün strukturlarının 2015-ci ilin ikinci rübü ərzində uğurla fəaliyyət göstərdiyini qeyd edib."Vətəndaş cəmiyyəti" jurnalı və qhtxeber.az saytı QHT-lərə informasiya dəstəyini mütəmadi olaraq davam etdirib. F. Qurbanov eyni zamanda 2015-ci ilin birinci maliyyə müsabiqəsi çərçivəsində QHT-lərin müqavilə öhdəliklərini tamlıqla yerinə yetirmələri üçün zəruri işlərin görüldüyünü deyib.

Müşavirədə beynəlxalq şöbənin, mətbuat xidmətinin, mühasibatlıq və maliyyə şöbəsinin rəhbərlərinin və layihə koordinatorlarının məruzələri dinlənilib. Toplantıda Şuranın yeni hüquqşünası Rauf Məcidbəyli katibliyin kollektivinə təqdim edilib.

Toplantıda Şuranın maliyyə dəstəyi ilə hazırlanan filmlərin qiymətləndirilməsi üçün "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Gəray Əlibəyli (sədr), Şura Katibliyinin əməkdaşları Elməddin Behbud, Sənan Nəcəfov və Səfər Alışarlıdan ibarət komissiyanın yaradılması haqqında qərar qəbul edilib.

Müşavirənin yekununda Şura sədri Azay Quliyev dövlətin yardımı ilə həyata keçirilən QHT layihələrinin icrasının səmərəliliyinin, ictimaiyyətlə əlaqələrin artırılması və hesabatlılıq məsələləri ilə bağlı katiblik əməkdaşlarına tapşırıq və tövsiyələrini verib.

YENİ MÜSAVAT
N 140 (6170) 2 iyul 2015



# Vergi oyunları

Zamin HACI
zaminhaci@gmail.com

*"Qoyunlardan necə zəhləm getdiyini yaxşı xatırlayıram, tamamilə kütbeyin olduqlarına görə. Mən görürdüm onlar necə, elə hey yeyir, yeyirdilər, itlər necə bütöv bir sürünü idarə edirdilər. Qoyunları qovurdum, onların qaçış tərzi, özlərini axmaq, dolaşıq vəziyyətlərə salması məni güldürürdü".*

***(Yen Benks, "Eşşəkarısı fabriki")***

***

**Birinci Avropa Oyunlarının ölkəmizin ictimai-siyasi həyatına təsiri böyükdür. Yarış rəsmi şəkildə 4-5 gün qabaq bitsə də, hələ onun dalğaları ərazidə dolaşmaqdadır. Medallar, təltiflər, cürbəcür hədiyyələr davam edir. Gələn ayın 12-də yarışın 1 aylığı münasibətiylə bulvarda böyük atəşfəşanlıq olacaqdır. O biri ay yarışların 1 aylığının 1 ayının tamam olması təntənəli şəkildə qeyd ediləcəkdir. Gələn il iyunun 12-də isə yarışların ili çıxacaq, ən çox tədbir o zaman olacaqdır. Bəlkə əhaliyə pulsuz peraşki də verildi. O cümlədən kreditlərin bağışlanması haqda xəbərlərin ildönümü mərasimi keçiriləcəkdir. İyunun 12-dən 27-nə qədər - yarışlar müddətində stadionlara yaxın ərazilərdə ölənlər hökumətin, cənab prezidentin müvafiq sərəncamları ilə dirildiləcəkdir. Kimin ölüsü düşübsə gəlib qeydiyyatdan keçsin.**

Bakı Dövlət Universitetində (BDU) srağagün könüllü tələbələrlə görüş olmuşdur. Sən demə, yarışlara tək BDU-dan 3 min nəfər könüllü tələbə göndərilmişdir. İndi anladınızmı stadionları kiminlə doldururdular? Mariya Dorogan medal alanda fıştırıq çalan, hoppanan gənclər BDU hüquq fakültəsinin gələcək prokurorları idilər. Bunları gələcəkdə hara istəsən buyurmaq olar. BDU rektoru Abel müəllim könüllülərə təşəkkürünü bildirəndən sonra görüşün əsas məqsədini açıqlamışdır. Sitat: "Sessiya imtahanlarından danışan rektor imtahanların universitetdə bir qayda olaraq yazılı keçirildiyini, lakin könüllülər üçün qaydalarda dəyişiklik edildiyini bildirib, şifahi qaydada olacağını diqqətə çatdırıb".

Məncə, bu çox kiçik minnətdarlıqdır, diplomu verib yola salmaq da olardı. Bizdə elmə, təhsilə bax belə yüksək diqqət vardır. Ümidvaram təzə təhsil naziri Mikayıl müəllim asudə vaxt tapanda könüllülərin şifahi imtahanla yola verilməsinə öz kəskin münasibətini bildirəcəkdir! Ayıb deyilmi? Diplom verin xalqın uşağına! Onların daha oxuması nəyə lazımdır? Hər şeyi bilirlər.

Oyunların təşkilində göstərdikləri xidmətə görə bir neçə nazir medal və ordenlər almışdır, onların biri də vergilər naziri Fazil Məmmədov olmuşdur. Fazil müəllim vergi orqanlarını obyektləri soyub oyunları pulla, var-dövlət, qaş-daşla təmin eləməyə göndərdiyi üçün Şöhrət ordeni almışdır. Zarafat edirəm, bizim vergilər sistemində hələ indiyə qədər bir köpəyoğlu bir qəpik rüşvət almayıbdır. Fazil müəllim özü isə şəxsən maaşı ilə yaşayır, aydan-aya güclə keçir. Neçə dükanda adı nisyə dəftərindədir. Bəs Fazil müəllim niyə mükafat alıb? Vergilərin oyunlara nə dəxli? Yenə medalı təhsil nazirinə versələr (yuxarıdakı səbəb üzündən) anlayardıq. Üstəlik, Fazil müəllim velosiped idmanı federasiyamızın sədridir, Azərbaycan isə bu velosiped yarışlarında bir alüminium medal da qazanmayıb.

Ancaq Fazil müəllim eyni zamanda, deyəsən, güləş federasiyasının da sədridir *(vergilərə bu qədər federasiya tapşırmaq ölkəmizdəki şəffaflığın, antikorrupsiya şəraitinin əlamətidir, Artur müəllimin əziz baş nazirliyi haqqı)*, o sahədə isə yanılmıramsa dağıstanlı, iranlı, ukraynalı uşaqların hesabına bir zənbil medal almışıq. Belə çıxır Fazil müəllim velosipedə görə medala haqq eləməsə də güləşə görə haqq eləyir. İnşallah, gələn dəfə güləşçilər velosiped sürməyi öyrənib bu istiqamətdə bir neçə kisə medal alarlar, tədiyyə balansı sabitləşər.

Mən bircə onu anlamadım ki, niyə xarici işlər naziri və mədəniyyət-turizm naziri medal almadılar. Elmar müəllimi başa düşdük, o, diplomatik örüşdən bir dana qaçırdığı üçün bu saat parter vəziyyətindədir, bəs Əbülfəs müəllimə niyə bir şey-şüy verilmədi? Bəs ölkəyə milyonlarla turist gəlmişdi axı? Camaat turist əlindən evindən çıxa bilmirdi. Mən özüm hər gün çörək almağa gedəndə turistləri yara-yara gedirdim.

İndi söz əlaqədar medal verən təşkilatlarındır.



# Seçki müzakirələri qızışdı: YAP-a seçki plagiatı ittihamı

## Hakim partiya namizədlərini müxalifətdən sonra açıqlamağı düşünür; **Gülağa Aslanlı:** "Deməli, onlar Müsavatın 2010-cu ildəki taktikasını tətbiq etmək istəyirlər"

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov "Trend"ə müsahibəsində deyib ki, parlament seçkilərinə hazırlıqla əlaqədar proseslər gedir. YAP funksionerinin sözlərinə görə, rayon və şəhər seçki qərargahlarının yaradılması və texniki təchizatı, orada fəaliyyət göstərəcək şəxslərin seçilməsi və onlara təlimlərin keçirilməsi prosesi də gedir.**

"Bundan əlavə, hər bir dairənin ərazisində seçicilərin kateqoriyaları, əhalinin məşğuliyyəti, oradakı problemlər və digər məsələlərlə bağlı araşdırma aparılacaq. Avqust ayının 1-dək bu proseslər də həllini tapmalıdır"-S.Novruzov deyib. YAP funksioneri əlavə edib ki, bütün seçki dairələrində namizəd irəli sürdükləri üçün Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, hər bir dairə və məntəqəyə bir nəfər məşvərətçi səs hüquqlu üzv və bir nəfər müşahidəçi təyin etmək hüququna malikdirlər. Bu baxımdan həmin şəxslərin də müəyyənləşməsi və seçilməsi prosesi gedir. "Həmçinin namizədlərimiz üçün imza toplayacaq şəxslərin müəyyənləşdirilməsi prosesi gedir. Çalışırıq ki, hər bir dairə üçün təxminən 10 nəfər imza toplayan şəxs müəyyən edək ki, imzatoplama kampaniyası uğurla başa çatsın. Bundan sonra isə qalan proseslərə seçkiyə start verildikdən sonra başlanılacaq".

**S.Novruzovun sözlərinə görə, hər bir dairə və namizədlər üzrə araşdırmalar aparılıb:** "Yeni fəaliyyətdə olan deputatların və gələcəkdə deputatlığa namizədliyi irəli sürüləcək şəxslərin fəaliyyəti ilə əlaqədar dairələrdə araşdırmalar aparılıb...Yeni Azərbaycan Partiyası öz araşdırmalarını yekunlaşdırıb. Biz hər bir dairədən öz namizədlərimizi irəli sürəcəyik. Digər partiyaların hansı dairələrdən kimlərin namizədliyini irəli sürəcəyini gözləyirik. Ola bilər ki, bizdə hansısa operativ yerdəyişmələr olsun".

**YAP təmsilçisi parlamentin gəncləşəcəyi barədə fikirləri təkzib edib:** "Gənclərlə bağlı konkret bir məsələ yoxdur. Yəni kimin yaşlı, kimin gənc olması məsələsi yoxdur. Təbii ki, Azərbaycanda kifayət qədər yaxşı təhsil almış, dövlətçiliyə sədaqətli, Azərbaycanı layiqincə təmsil edə biləcək yeni nəslin nümayəndələri yetişib. Əvvəl bələdiyyə seçkilərində gənclərin sayı dörd faiz təşkil edirdisə, son bələdiyyə seçkilərində artıq bu rəqəm 30 faizdən yuxarı oldu. Bunu əsas müəyyən edən seçicidir. Əgər seçici səs verəcəksə, layiq biləcəksə, deməli, o insanlar orada təmsil olunmalıdır".

**S.Novruzov müxalifətin imkanları, seçki hazırlıqlarından da danışıb:** "Müxalifət partiyaları heç bir araşdırma aparmadan, dairələrin yerli xüsusiyyətlərini öyrənmədən namizəd müəyyənləşdirməyə çalışırlar. Müxalifətdə bu təhlil yoxdur, elə təxminən deyirlər ki, mən filan yerdən namizədliyimi verəcəyəm, amma dəfələrlə sübut olunub ki, müxalifət "liderləri" son 20 ildə hər dəfə öz dairələrini dəyişiblər. Yəni bu onun göstəricisidir ki, onlar konkret araşdırma aparmırlar". O deyib ki, müxalifətin heç bir sosial bazası yoxdur. İnsanlar artıq onlara etibar etmirlər.



Siyavuş Novruzov



Gülağa Aslanlı

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı YAP funksionerinin dediklərinə öncə belə reaksiya verdi:** "Əvvəla, sual yaranır, əgər hakimiyyət öz namizədlərini müəyyənləşdirirsə, onları niyə elan etmir? Deməli, onlar Müsavat Partiyasının 2010-cu ildə tətbiq etdiyi taktikanı tətbiq etmək istəyirlər. Bu, seçki kampaniyası dövründə tətbiq olunan metodlardan biridir. Hər bir partiya özünün namizədini seçki elan olunanadək müəyyən qədər gizli saxlamağa çalışır. Bu da onunla əlaqədardır ki, yadınızdadırsa, 2010-cu ildə Müsavat başqanı İsa Qəmbərin namizədliyi 15-ci seçki dairəsindən veriləndən sonra o dairədən hakim partiyanın namizədləri digərləri ilə əvəz olundu. Bu, həmişə hakimiyyətin müxalifətə qarşı istifadə etdiyi metoddur".

**G.Aslanlı qeyd etdi ki, Müsavat da öz namizədlərini müəyyənləşdirməyə çoxdan başlayıb:** "Rayon təşkilatları namizədlərlə birlikdə hansı dairədən kimin daha çox səs qazana biləcəyi imkanlarını öyrəndikcə namizədləri müəyyənləşdirirlər. Bu baxımdan da Müsavat Partiyası artıq 70-dən çox dairədə müəyyənləşdirib. Digər dairələrdə də işlər gedir. Seçki qanunvericiliyinə uyğun olaraq MSK seçkinin gününü təyin edən kimi Müsavat Partiyası da özünün nizamnaməsinə uyğun olaraq Məclisini çağıracaq və dairələr üzrə namizədlər təsdiqlənəcək".

**İddialar var ki, Qərb təşkilatları Azərbaycan hakimiyyətini müxalifətin müəyyən sayda mandat sahibi olmasına imkan yaratmağa razı salmaq üçün çalışır. Bəs müxalifət necə, əvvəlki illərdə də dolaşan bu cür şayiələrə inanırmı? G.Aslanlı:** "Hələ ki Azərbaycan hakimiyyətindən belə bir jest hiss olunmur. Azərbaycan hakimiyyəti daha dərin avtoritarizm xəttini götürüb. Özlərinin dili ilə desək, Azərbaycanı dünyaya tanıtmaq üçün keçirilən Avropa Oyunları ərəfəsində belə, beynəlxalq təşkilatlar tərəfindən siyasi məhbus, vicdan məhbusu hesab olunan şəxslərin həbsdən buraxılması, yaxud vəziyyətinin yaxşılaşdırılması üçün, demokratiyaya doğru heç bir addım atmadısa, indi seçkidə hansısa müsbət addım atacağını söyləmək xeyli çətindir. Amma təbii ki, ağıllı addım olar ki, hakimiyyət demokratik seçki keçirmək haqqında qərar versin. Əgər bu siyasi iradəni ortaya qoyarsa, təbii ki, onda seçki komissiyaları da artıq əvvəlki kimi yox, azad seçki keçirməkdə qərarlı ola bilər. Hakimiyyət istəsə, demokratik seçki keçirə bilər. Beləliklə də seçki ilə bağlı Azərbaycan hakimiyyətinə yönəlmiş iradlar aradan qalxar. Nəticədə həm Azərbaycan xalqı, həm də hakimiyyəti bundan udar".

**Avropa Şurası Parlament Assambleyası parlament seçkilərini müşahidə edəcəyini bəyan edib. Müşahidəçilərin gəlişi barədə gözləntiləri bölüşən Müsavat funksioneri dedi ki, Avropa Şurasının müşahidəçiləri ötən seçkidə ən azı orta xətt götürdülər:** "Burada ATƏT-in müşahidəçiləri daha düzgün qiymət verdilər və bundan artıq nəsə edə bilməzdilər. "Məntəqələrdə 57 faiz səslərin sayılması pis və daha pis şəkildə təşkil olunmuşdu, keçirilirdi" yazılması o demək idi ki, ölkədə azad, demokratik seçki keçirilməyib. Beynəlxalq təşkilatlar gəlib bizim əvəzimizə nə səs verməyəcək, nə də seçki komissiyalarının işini görməyəcəklər. Beynəlxalq təşkilatların Azərbaycan hakimiyyəti qarşısında hansısa tələb qoymaq imkanları yoxdur. Hakimiyyət sadəcə bundan nəticə çıxartmalıdır və normal seçki keçirmək üçün ortaya siyasi iradə qoymalıdır".

❑ **Cavid TURAN**

**7 iyun parlament seçkisindən sonra hökumətsiz qalan Türkiyədə siyasi partiyalar koalision hökumət qurulması üzrə müzakirələri davam etdirirlər. Hələlik danışıqlar liderlər səviyyəsində açıq danışıqlara keçməyib. Bu proses yaxın günlərdə tamamlanacaq parlament sədri seçkisindən sonra gözlənilir. Türkiyə gündəminin əsas problemləri ilə bağlı "Yeni Müsavat"ın suallarını "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu cavablandırır.**

# "Ərdoğan koalisiyanın iflasında maraqlıdır"

## Elxan Şahinoğlu: "MHP millətçilik və dövlətçilik naminə ölkəni hökumətsiz qoymamalıdır"

***- Parlament sədri seçkisində kimin şansı daha çoxdur?***

- AKP-nin namizədi İsmət Yılmazın şansı daha çox görünür. Çünki hökumətdən fərqli olaraq parlamentin sədri səsvermənin sonrakı mərhələlərində adi səs üstünlüyü ilə seçilir. AKP parlamentdə adi səs çoxluğuna malik olduğundan İsmət Yılmazın seçilməsi şansı yüksəkdir. Halbuki bu seçkiyə qədər koalision hökumətlə bağlı partiyalar arasında razılaşmanın konturları müəyyənləşsəydi, AKP parlament sədri postunu başqa partiyanın namizədinə güzəştə gedə bilərdi. Məsələn, CHP AKP-yə ağır şərtlər irəli sürmədən bu partiya ilə koalisiyaya razı olacağı mesajını versəydi, AKP Məclis sədri postunu CHP-nin namizədi Dəniz Baykala güzəştə gedərdi. Ya da əksinə, MHP AKP ilə koalisiyaya bəri başdan razılıq versəydi, AKP bu dəfə MHP-nin namizədi olan Ekmeleddin İhsanoğlunu dəstəkləyə bilərdi. Məsələ burasındadır ki, TBMM sədrinin elə böyük səlahiyyətləri yoxdur və AKP bu postu koalisiya yaradılması qarşılığında CXP və MHP-yə güzəştə getməyə hazır idi. Ancaq CHP və MHP əvvəlkitək şərtlərini diqtə etdiklərindən AKP-yə aydın oldu ki, hazırkı məqamda parlament sədri postunun güzəştə gedilməsi ona koalision hökumət qurmağa imkan verməyəcək və ona görə də öz namizədini irəli sürdü və sona qədər onu dəstəklədi.

***- AKP-CHP koalisiyası bu gün koalisiya formaları içərisində ən çox müzakirə edilir. Sizcə, bu variant mümkün ola bilərmi?***

- CHP lideri Kamal Kılıçdaroğlu çox çalışır ki, AKP olmadan koalisiya qurulsun. Deyir ki, müxalifətin ümumi 60 faizlik səsi AKP-nin 40 faizlik səsindən çoxdur. Kılıçdaroğlunun məntiqinə görə, bu 60 faiz koalision hökumət qurub AKP-ni müxalifətə sürükləməlidir. Ancaq bu real variant deyil. Çünki milliyətçi türklərlə (MHP), milliyətçi kürdlərin (HDP) koalisiyada olması mümkün görünmür. MHP ümumiyyətlə HDP-nin varlığını qəbul etmir, onu terrorçu PKK-nın siyasi qanadı sayır. Bu baxımdan Kılıçdaroğlunun AKP-ni müxalifətə göndərməsi planı alınmayacaq. Ortada yalnız AKP ilə koalisiya qurmaq qalır. Ancaq bunun üçün CHP AKP-nin birinciliyini qəbul etməlidir. Bu o deməkdir ki, Kamal Kılıçdaroğlu baş nazir Əhməd Davudoğlunun yardımçısı olmalıdır. Bunun özünü də təsəvvür etmək çətindir. Mən seçki sonrası qənaətimdə qalıram ki, AKP-MHP koalisiyası AKP-CHP koalisiyasından daha real görünür. Çünki birincisi, AKP və MHP sağ partiyalardır. İkincisi, AKP-nin içində də milliyyətçi kəsim var və bu, AKP-nin MHP tabanına yaxın olduğunu göstərir. Üçüncüsü, AKP hakimiyyətdə olduğu 13 ildə onun bəzi qanun və düzəlişlərinə məhz MHP dəstək verib. Misal üçün, Rəcəb Tayyib Ərdoğan başı bağlı xanımların ali təhsil ocaqlarına girişinə qadağa qoyan qanuna düzəliş etmək istədikdə onun bu təşəbbüsünə məhz MHP dəstək verdi. Bütün bu amilləri nəzərə alaraq AKP-MHP koalisiyası daha real görünür. Sadəcə, MHP lideri Dövlət Baxçalının "AKP çözüm sürəcinə son qoymalıdır" tələbi ağırdır. Bu o deməkdir ki, AKP MHP ilə koalisiya qurmaq üçün "kürd açılımı" proqramını dayandırmalıdır. Əslində bu məsələdə də ortaq məxrəcə gəlmək mümkündür. Onsuz da AKP bu illərdə kürdlərə xeyli hüquq verib, yəni "kürd açılımı" proqramının böyük hissəsini həyata keçirib. Ona görə də MHP ilə koalisiya qurub proqramın sürətini azalda bilər. Buna baxmayaraq, istənilən koalisiyanın ömrü qısa olacaq. Hər bir partiyanın fərqli marağı var. Koalisionlar Avropa ölkələrində uğurla fəaliyyət göstərirlər, şəxsiyyətlərin ön planda olduğu Türkiyədə isə bu mümkün olmur. Çünki hər bir partiya və onun lideri yorğanı öz tərəfinə çəkməyə çalışır.

***- Erkən seçimlər olsa, bu, partiyalara nə vəd edir?***

- Türkiyədə hazırkı durumda erkən seçim heç bir partiyaya indikindən daha uğurlu nəticə vəd etmir. Doğrudur, yaxın müddətdə koalision danışıqları nəticə verməyəcək. Əhməd Davudoğlu danışıqların birinci mərhələsində 3 partiyadan hər hansı ilə anlaşa bilməyəcək. Daha sonra danışıqların növbəti raundu başlayacaq. Düşünürəm ki, hansısa mərhələdə koalision razılığı əldə ediləcək. Çünki Türkiyədə insanlar onsuz da iki aylıq seçki kampaniyasından yoruldular. Bu kampaniyadan özünə gəlməyən cəmiyyəti yenidən iki aylıq seçki kampaniyasına sürükləmək Türkiyəyə yaxşı heç nə vəd etmir. Türkiyənin ətrafında çox ciddi hadisələr baş verir, Suriyada İŞİD və kürd yaraqlıları Türkiyənin sərhədinə dirəniblər. Türkiyə ordusu Suriyada tampon ərazi ələ keçirmək haqqında düşünür. Və belə bir ağır vaxtda Türkiyəni hökumətsiz qoyaraq yenidən seçkiyə getmək vəziyyəti bir az daha gərginləşdirəcək. Və hələ o da bəlli deyil ki, seçkidəki nəticə iyundakı nəticədən fərqli olacaq. Kim zəmanət verə bilər ki, yenidən bu 4 partiya təxminən eyni miqdarda səs toplamayacaq. Bu isə yenidən uzun-uzadı koalision danışıqları deməkdir. İnsanlar bu partiyalara hazırkı fərqli kombinasiyada ona görə səs veriblər ki, müyyən hökumət modeli tapıb ölkəni idarə etsinlər, daha deməyiblər ki, həmin partiyalar yenidən onların üstünə gəlsinlər.



**"Əgər CHP və HDP ilə koalisiyada yer almaq istəmirsə, AKP ilə koalisiya qurmalıdır"**

***- Prezident Ərdoğan AKP-nin hakimiyyətini uzatmaq üçün hansısa planları işə sala bilər? Ümumiyyətlə, o, indiki səlahiyyətləri daxilində bunu etmək iqtidarındadırmı?***

- Ərdoğanın durumu lap ağırdır. Çünki bu seçkinin nəticələri onun planlarının üstündən xətt çəkdi. Ən əsası Ərdoğan ölkəni prezident respublikasına çevirə bilmədi. Onun son açıqlamalarını diqqətlə izlədikdə məndə belə bir təəssürat yaranır ki, cümhurbaşqanı iflasına maraqlıdır. Çünki Ərdoğan iflasa uğrayan koalisyon hökuməti istefaya göndərdikdən sonra yenidən parlament seçkisinin tarixini elan edəcək. Onun xalqa əsas mesajı bu olacaq ki, görürsüz, koalisyon formulu əvvəlki illərdə olduğu kimi alınmır, 13 illik sabitlik və inkişaf illərini xatırlayın və yenidən AKP-yə təkbaşına hökumət qurmağa imkan verən mandat qazandırın. Ərdoğan 2000-ci ildə qazandığı uğurun strategiyasına qayıtmaq istəyir. O zaman da 3 partiyanın koalision hökuməti var idi, iqtisadiyyat bərbad hala düşdü və növbədənkənar parlament seçkisi təyin olundu. Koalisionlardan bezən xalq AKP-ni seçməklə ona təkbaşına hökumət yaratmaq fürsəti qazandırdı. AKP o zaman yeri yaranmışdı, insanların böyük əksəriyyəti bu partiyanı heç yaxşı tanımırdı, sadəcə, ona görə səs verdilər ki, koalisiyada yer alan partiyaları cəzalandırsınlar. İndi Ərdoğan yenidən xalqın işə yaramayan koalisiyanı cəzalandırmasını istəyəcək. Ancaq bundan əvvəl hələ koalisiya qurulub bir neçə ay fəaliyyət göstərməlidir.

***- Sizcə, erkən seçim olsa, HDP yenidən barajı aşa bilərmi?***

- HDP-nin yenidən barajı aşması mümkündür. Çünki bütün variantlarda HDP müxalifətdə qalacaq. Eyni zamanda gələcək koalisiyanın dağılmasına görə heç bir siyasi məsuliyyət daşımayacaq. Əksinə, HDP müxalifətdə olaraq daxili çəkişmələr içində boğulan koalision hökumətə daha çox tənqid yönəltməyə çalışacaq ki, qazandığı 13 faizin etibarını itirməsin. Ancaq əgər HDP sırf kürdlərin məsələsi ilə məşğul olarsa, PKK ilə arasında məsafə qoymazsa və ya ən pis halda Abdulla Öcalanın sərbəst buraxılmasını tələb edərsə, bu halda erkən seçkidə barajı aşmaya da bilər. Çünki ona verilən 13 faiz səs yalnız kürdlərin radikal hissəsinin səsi deyil. XDP yalnız bu səslərlə barajı aşa bilməzdi. Ona səs verən insanların bir qismi HDP-nin bütöv Türkiyənin partiyası olmasını istəyirlər. Ona səs verənlər bu partiyanı bəyəndiklərinə görə seçməyiblər, əsas istəkləri o olub ki, HDP barajı aşsın və AKP təkbaşına hökumət qura bilməsin. Ancaq əgər HDP PKK-nın siyasi qanadı statusundan qurtulmazsa, gələcək seçkilərdə barajı aşmaya da bilər.

***- Türkiyənin ətrafında baş vetən proseslər ölkənin siyasi həyatına, konkret olaraq koalisiya qurulmasına necə təsir edir?***

- Türkiyədə koalisiya məhz ətrafda baş verən olaylara görə təcili formalaşmalıdır. Hər tərəfdən Türkiyəyə təhdid və təhlükə var. Hökumət yoxdursa və ya müvəqqətidirsə, ətrafdakı problemlərlə ciddi məşğul olan qurum da yoxdur. Çünki hamı özünü müvəqqəti sayır. Ona görə də birinci növbədə MHP millətçilik və dövlətçilik naminə ölkənin gələcəyinə görə məsuliyyəti anlayıb ölkəni hökumətsiz qoymamalıdır. Əgər CHP və HDP ilə koalisiyada yer almaq istəmirsə, AKP ilə koalisiya qurmalıdır.

❑ **Aygün MURADXANLI**





## İsmət Yılmaz Türkiyədə parlament sədri oldu

**Türkiyədə parlament sədrinin kimliyi bəlli olub. "Anadolu" agentliyinin məlumatına görə, üçüncü turda səsvermədə yenə də heç bir namizəd Türkiyə Böyük Millət Məclisi (TBMM) sədrinin seçilməsi üçün lazım olan 276 səsi toplaya bilməyib. 3-cü turun səsvermə nəticələrinə görə, AKP namizədi, Sivas millət vəkili İsmət Yılmaz 259, CHP namizədi, Antalya millət vəkili Dəniz Baykal 129, MHP namizədi, İstanbul millət vəkili Ekmeleddin İhsanoğlu 80, HDP namizədi, Mesrin millət vəkili Dengir Mir Mehmet Frat isə 78 səs alıb. Sədr seçilməsi üçün səsvermənin 4-cü turu keçirilib və 3-cü turda ən çox səs toplayan AKP namizədi İsmət Yılmaz və CHP namizədi Dəniz Baykal arasında seçim olub.**

4-cü turda seçki zamanı AKP namizədi İsmət Yılmaz 258 səs toplayaraq parlament sədri seçilib. İkinci səs namizəd CHP namizədi Deniz Baykal 189 səs toplayıb. Seçimdə 547 millət vəkili iştirak edib.

# Tehran və Vaşinqtonda siyasi gərginlik artır

## Şahin Cəfərli: “Qərb-İran anlaşması Azərbaycanın geostrateji əhəmiyyətini müəyyən qədər azaldacaq”


Şahin Cəfərli

**İran və “altılıq” ölkələri arasında iyunun 30-da nəzərdə tutulan yekun müqavilə imzalanmayıb. Tərəflər bir sıra məsələlərdə anlaşa bilmədikləri üçün danışıqların müddəti iyulun 7-dək uzadılıb.**

ABŞ Dövlət Departamentinin mətbuat katibi Mari Harf bildirib ki, bu barədə Vyanada keçirilən ABŞ-İran görüşündə razılıq əldə edilib. “Vaxtın uzadılması məsələnin uzunmüddətli həllinin zəruriliyi ilə əlaqədardır”, deyə M.Harf bildirib.

Qeyd edək ki, İran mətbuatının yazdığına görə, anlaşma əldə olunmasına mane olan əsas bəndlər İranın hərbi obyektlərinə baxışın keçirilməsi, iranlı nüvə mütəxəssislərinin dindirilməsi və sanksiyaların qaldırılması şərtləridir. İran tərəfi heç bir halda hərbi obyektlərini təftişə açmayacağını və mütəxəssislərin ifadə verməsinə razı olmayacağını bildirir. Eyni zamanda ölkə daxilində mühafizəkar camiə islahatçı hökuməti güzəştə getməkdə ittiham edir.

Ancaq nüvə anlaşmasına görə, təzyiqə məruz qalan yalnız İran hökuməti və Həsən Ruhani deyil. Maraqlıdır ki, İrana görə ABŞ prezidenti Barak Obama da siyasi müxalifətin təzyiqləri ilə üzləşib. Vaşinqtonda nüfuzlu siyasətçilər Obamaya İranla əldə olunan anlaşmanın riskləri ilə bağlı xəbərdarlıq edirlər. BBC-nin məlumatına görə, Konqresin nümayəndəsi olaraq İranla anlaşma mətnini gözdən keçirən respublikaçı senator Bob Korker Obamaya xəbərdarlıq məktibi yazıb. Məktubda senator Obamaya “qırmızı xətlərin erroziyaya uğraya biləcəyi” haqda xəbərdarlıq edib. Bundan başqa, ABŞ prezidentinin 5 nəfər yüksək səviyyəli İran üzrə müşavirləri ona məktub yazaraq anlaşmadakı təminatların İranın nüvə silahı əldə etməsi imkanlarını məhdudlaşdırmaya biləcəyindən narahat olduqlarını bildiriblər. Hazırda Obama komandasının Konqresi İranla anlaşmaya razı salmaq üçün ciddi fəaliyyət göstərdiyi bildirilir. Yəni hətta iyulun 7-də razılaşma əldə olunsa belə, bunun təsdiqlənib qüvvəyə minməsi müəyyən zaman alacaq.

İranla ABŞ arasında yekun nüvə anlaşmasının Yaxın Şərqdəki siyasi proseslərə təsir edəcəyi haqda ekspertlər səviyyəsində iddialar ortaya atılıb. Eyni zamanda bu anlaşmanın konkret olaraq Azərbaycana təsirləri ilə bağlı fərqli iddialar var. Bəziləri görə, bu anlaşma Azərbaycan üçün faydalı olacaq, bir başqalarına görə, əksinə, Azərbaycanın Qərbdə yerini zəiflədəcək. Qəribə də olsa İranla ABŞ arasında ilkin razılaşmanın əldə olunmasından sonra Bakının Qərblə münasibətləri sürətlə pisləşməyə başlayıb. Bu, birbaşa İran-Qərb yaxınlaşması ilə bağlıdırmı?

**Siyasi şərhçi Şahin Cəfərliyə görə, bu hadisələr arasında birbaşa əlaqə yoxdur. Ekspertə görə, Azərbaycan-Qərb münasibətlərinin soyuması əsasən bir-biri ilə bağlı olan iki faktorla əlaqədardır:** “Birincisi, Azərbaycan üçün artıq strateji seçim anı yetişib və balans siyasəti əvvəlki kimi effektiv nəticə vermir. Qərb Azərbaycanın Avropa Birliyi ilə inteqrasiya xəttini davam etdirəcəyini və assosiasiya sazişini imzalayacağını gözləyirdi. Lakin rəsmi Bakı buna getmədi. Bu qərarda Rusiya faktorunun da rolu var.

İkincisi, Qərb Azərbaycandan siyasi sahədə islahat xarakterli müəyyən addımlar gözləyir və daxili siyasətdə yumşalma, məsələn, siyasi məhbus hesab olunan şəxslərin azadlığa buraxılmasını tələb edir. Azərbaycan iqtidarı isə bu tələblərin həyata keçirilməsinin öz hakimiyyətinə təhlükə yaradacağını düşünür və müqavimət göstərir”.

**Bəs anlaşma əldə olunsa, bunun Azərbaycana təsiri necə olacaq? Ş.Cəfərli deyir ki, Qərb-İran anlaşması Azərbaycanın Qərb üçün geostrateji əhəmiyyətini müəyyən qədər azaldacaq:** “Məlumdur ki, Azərbaycan İranla uzun sərhəd xəttinə malikdir. Rəsmi Bakının öz ərazisindən İrana qarşı istifadə olunmasına icazə verməyəcəyini dəfələrlə bəyan etməsinə baxmayaraq, Qərbin və İsrailin İrana qarşı kəşfiyyat fəaliyyətləri, təchizat və digər addımlar üçün Azərbaycan ərazisindən istifadə etməsi ehtimalı, hər halda, var idi. Bu baxımdan Azərbaycan Qərb və İsrail üçün önəm daşıyırdı. Anlaşma olarsa, bu amil ortadan qalxmış olacaq.

Digər məqam isə karbohidrogen ehtiyatları ilə bağlıdır. Tərəflər razılığa gələrsə, İran öz neft-qaz ehtiyatlarını yenidən Avropa bazarına çıxarmağa başlayacaq. Bu isə Azərbaycan üçün təsirsiz ötüşməyəcək, çünki neftin və ona bağlı olaraq təbii qazın qiyməti aşağı səviyyədə qalacaq. Lakin bu, heç də o demək deyil ki, Azərbaycan öz əhəmiyyətini itirir. Qərb bir neçə mənbədən enerji idxal edərək Rusiyadan bu sahədə asılılığını minimuma endirməkdə çox ciddi şəkildə maraqlıdır. Ona görə də TANAP və onun davamı kimi TAP layihələrinin həyata keçirilməsi və mümkün olarsa Türkmənistan qazının da "Transxəzər" layihəsi ilə dünya bazarına çıxarılması ABŞ və Avropa Birliyi tərəfindən dəstəklənir".

❑ KƏNAN

# Qarabağda “ildırımsürətli” müharibə xəbərinə reaksiyalar...

## Zahid Oruc: “Qərb hazırda Azərbaycan və Rusiyanın razılaşmalarını bütün vasitələrlə linç etmək üçün çalışır”

**Avropa Oyunlarından sonra Azərbaycanın işğal altındakı ərazilərin azad olunması üçün hərbi əməliyyatlara başlayacağı barədə məlumatlar artıq düşmən ölkədə də narahatlıqları artırıb. Hətta ölkənin rəsmi şəxsləri də ayrı-ayrı açıqlamalarında Azərbaycanın bu planından narahatlığını ifadə edərək özlərinə beynəlxalq aləmdə dəstək arayırlar.**

Azərbaycan prezidentinin “Rədd olsunlar bizim torpaqlardan. Əgər erməni əsgəri ölmək istəmirsə, Ağdama, Füzuliyə gəlməsin” bəyanatına istinad edən müdafiə naziri Zakir Həsənov da bugünlərdə ordunun əsas heyətinin cəbhə bölgəsinə göndəriləcəyini söylədi. Azərbaycanın yeni müasir silah-sursat, hərbi texnika alması, təlimlərin davam etdirilməsi, yeni poliqonların yaradılması Qarabağın azadlığı ilə bağlı əməliyyat planının masa üzərində olduğu qənaətini möhkəmləndirir.

Bu arada Qarabağda “ildırımsürətli” hərbi əməliyyatların başlanacağı barədə də məlumatlar yayılıb. Hətta belə məlumatlar var ki, Ermənistanın hərbi-strateji müttəfiqi Rusiya İrəvanı cəzalandırmaq, ermənilərə dərs vermək üçün ən azı bir neçə saat ərzində Azərbaycanın hücumuna müdaxilə etməyəcək və Dağlıq Qarabağ ətrafındakı ərazilərin azad olunmasına şərait yaradacaq. Düzdür, bəzi ekspertlər fərqli düşünür. Xüsusilə də iyunun 26-da Rusiyanın Ermənistana müasir silah almaq üçün 200 mln. dollar məbləğində güzəştli kredit verməsi faktı xatırladılır. Xatırladaq ki, bu barədə Ermənistan prezidenti Serj Sarkisyanla Rusiyanın nəqliyyat naziri, Ermənistan-Rusiya komissiyasının həmsədri Maksim Sokolovun rəhbərliyi ilə nümayəndə heyətinin İrəvan görüşündən sonra məlum olub.


Zahid Oruc

Hərbi əməliyyatların başlayacağı barədə məlumatlara ekspertlərin baxışı fərqlidir.

**Politoloq Elxan Şahinoğlu deyir ki, Rusiyanın hərbi əməliyyatlara bir neçə saatlıq da olsa, loyal yanaşacağına, neytral qalacağına inanmır:** “Atəşkəsin intensiv pozulacağını, əsəblərin gərilləcəyini ehtimal edirəm. Ancaq bunun torpaqların azad edilməsi əməliyyatına çevriləcəyini söyləmək çətindir. Çünki rəsmi Bakı bu halda ”Rusiya özünü necə aparacaq" sualına hələ cavab tapmayıb".

**Deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc hesab edir ki, Ermənistanda xalq üsyanının mühüm səbəblərindən biri də Qarabağla əlaqədar son Moskva-Bakı yaxınlaşmasının qarşısını almaq üçün həyata keçirilən qabaqlama əməliyyatıdır:** “1999-cu ildə müharibə tərəfləri arasında məxfi razılaşmalar real idi və ATƏT-in İstanbul sammiti qarşısında Kreml rəhbərliyi onun iradəsindən kənarda hərəkət edənləri çox sərt cəzalandırdı. Parlamentdə bir ölkənin elitasının qətlə yetirilməsi çox nadir hadisələrdən biriydi və bundan sonra ermeni siyasətçilərindən heç biri Rusiyanın qoyduğu çərçivədən kənara çıxmadı. Hazırda isə Qərb Ermənistanda Qarabağ əleyhinə situasiya hazırlayır. Çünki Brüssel və Berlində, o cümlədən Vaşinqtonda belə kəşfiyyat məlumatları vardı ki, Kremllə anlaşan Azərbaycan itirilmiş torpaqların bir hissəsini qaytarmaqla kommunikasiyaların açılmasına gedə bilər və bu, avtomatik olaraq Qərbin Cənubi Qafqazda tam iflası deməkdir. Çünki Qarabağ üçün Rusiya planının qalib gəlməsi uzun on illər ərzində Avropanın bizim regionda qurduğu sistemin dağılmasına səbəb olardı. Ona görə də dediyiniz ildırımsürətli müharibə məsələsini gündəmə gətirmək bəlkə də psixoloji savaşda bizim xeyrimizə işləyir. Lakin strateji anlamda Qərb hazırda Azərbaycan və Rusiyanın razılaşmalarını bütün vasitələrlə linç etmək üçün çalışır”. **Z.Oruc hesab edir ki, Avropa Oyunları əslində bizə görə beynəlxalq maraqları müəyyənləşdirməyin çox mühüm bir testi oldu:** “Yəni Qarabağda azad olunmuş kəndin qarşılığında hansı tələtümləri əleyhimizə qaldıracaqlarını proqnozlaşdırmaq o qədər çətin deyil. Əgər Azərbaycan Rusiyanın nisbi neytrallığı ilə qəfil hərbi əməliyyatlara başlasa, bütün dünya erməniliyini Moskva və Bakının üstünə qaldıracaqlar. Hüquqi pozulmuş ermənilərin növbəti cəfakeş obrazı bizə baha başa gələr. Londona dəvət olunmuş Bako Saakyan hadisəsi ”ildırımsürətli müharibə"dən sonra Qarabağın tanınması kimi təhlükəli perspektivə yol açar".

❑ Cavid TURAN

# Məhəmməd Mursi siyasi məhbusdurmu?

## İqtidar yetkilisinin fikri müzakirələrə yol açıb; hüquq müdafiəçisi edamını gözləyən sabiq prezidenti siyasi məhbus saymır, çünki...

**Hazırda dünyanın əsas gündəmində olan məsələlərdən biri Misirin ölüm hökmünə məhkum edilmiş sabiq prezidenti Məhəmməd Mursidir. Edamını gözləyən eks-prezidentin siyasi məhbus olub-olmaması ilə bağlı söz-söhbətlər Azərbaycan cəmiyyətində geniş müzakirələrə səbəb olub.**

Xüsusilə bu məsələ Prezident Aparatının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun Qərbin Azərbaycana qarşı apardığı kampaniyaya münasibət bildirərkən Mursi məsələsinə də toxunması və onu siyasi məhbus adlandırmasından sonra gündəmə gəlib. “Siyasi məhbusun bir nömrəli nümunəsi Misir dövlətinin başçısı Mursidir. Öz əhalisinin demokratik səsverməsi yolu ilə 50 faizdən çox səs toplayıb prezident seçilən adamı kiminsə maraqlarına cavab vermədiyi üçün bu gün həbs edərək edam etmək istəyirlər”, - deyə o bildirib.

Azərbaycanda siyasi məhbus olmanın bir sıra kriteriyaları var. Mursini də eyni qəbildən saymaq olarmı?

**Dini ekspert Kənan Rövşənoğlu bildirdi ki, Mursi siyasi məhbusdur:** “Məhəmməd Mursi, əlbəttə, siyasi məhbusdur. 3 min illik Misir tarixində xalq səsverməsi ilə seçilmiş yeganə lider Mursi oldu. Ancaq cəmi bir il hakimiyyətdə qaldı və özünün, komandasının səhvləri və rəqiblərinin güclü olması nəticəsində devrildi. Mursiyə qarşı ciddi siyasi koalisiya qurulsa da, devrilməsi birbaşa ordu tərəfindən oldu. Hazırda 5 ayrı işlə bağlı mühakimə olunur və ya olunub. Onlardan ikisi ilə bağlı ölüm hökmü cəzası alıb, 20 il həbs cəzası da verilib. Ancaq devrilmiş prezident üçün bu cəzalar siyasi hakimiyyətin sifarişidir və bu mənada Mursi klassik siyasi məhbusdur”.


Məhəmməd Mursi

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı isə Misirin sabiq prezidentini siyasi məhbus hesab etmir:** “Ona görə ki, o, xalqın tələbi ilə hakimiyyətdən gedib. Etimadı doğrultmadığına görə getdi - xalqın tələbi ilə seçilməsinə baxmayaraq. Siyasi məhbusun kriteriyaları var. Beynəlxalq təşkilatların, Avropa Şurasının bununla bağlı tələbləri mövcuddur. Etdiyi cinayətlərdə siyasi motivlər olarsa, o, siyasi məhbus ola bilər. Söylədiyi fikirlərə, ideyalarına görə həbs olunanlar isə vicdan məhbusu hesab olunurlar. Amma Misirdə, sadəcə, dövlət çevrilişi olub. Onda gərək Qəzzafini, Hüsni Mübarəki də bu cür qələmə verək. Dövlət başçıları xalq tərəfindən seçilir və devrilir. Kim Mursini siyasi məhbus hesab edirsə, demək, arqumentləri var. Amma mənim heç bir arqumentim yoxdur. Ona verilən ölüm hökmünün əleyhinəyəm. Çünki ədalətsiz məhkəmələr, üzəduran yalançı şahidlər var. Yəqin ki, belə hallar dünyanın çox yerlərində mövcuddur. İnsanı Allah yaradıb, Allah da öldürməlidir. Heç bir canlının başqa bir canlını məhv etmək haqqı yoxdur”.

**Müsavat başqanının müavini Elman Fəttah Mursinin qəbul etdiyi qərarlara diqqət etməyin vacib olduğunu qeyd etdi:** “Mursi çevriliş nəticəsində vəzifəsindən devrilmiş şəxsdir. Siyasi məhbusun kriteriyası, hətta düzgün, ədalətli, adekvat olmayan cəzanın tətbiqi belə bu statusu yaradır. Bu nöqteyi-nəzərdən, əlbəttə, o, siyasi məhbusdur. Amma bir şeyi də unutmaq olmaz ki, onun qəbul etdiyi qərarlara diqqət etmək lazımdır. Onlardan birini xatırladıram. Mursi devrilməmişdən 7 gün əvvəl qəbul etdiyi qərar fətva şəklində idi. Ölmüş qadınlarla münasibəti İslam nöqteyi-nəzərindən caiz hesab edən qərar qəbul etmişdi. Mursinin təfəkkürü və düşüncəsi onun siyasi məhbus olduğunu vurğulayan şəxs tərəfindən qeyd olunmalı idi. Mursi siyasi məhbusdur. Amma onun idarəetmə təfəkkürünün bu şəkildə olduğu qeyd edilməlidir”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

# Azalan fənlərin müəllimlərinin taleyi necə olacaq?

**Təhsil nazirinin 8 iyun tarixli əmri ilə 10-11-ci siniflərdə tədrisin təmayüllər üzrə təşkil olunacağı Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan şəhərlərində yerləşən 50 məktəbin siyahısı və 4 təmayül (texniki, riyaziyyat-iqtisadiyyat, humanitar, təbiət) istiqamətinin tədris planları təsdiq edilib. Plana görə, tədris olunacaq fənlərin sayı texniki fənlər təmayüllü siniflərdə 9, riyaziyyat-iqtisadiyyat və humanitar fənlər təmayüllü siniflərdə 8, təbiət fənləri təmayüllü siniflərdə 10-dək azaldılıb.**

Təmayül istiqamətindən asılı olmayaraq, tədris planlarında Azərbaycan dili (rus bölməsində rus dili), xarici dil, ədəbiyyat, riyaziyyat, Azərbaycan tarixi, fiziki tərbiyə, gənclərin çağırışa qədərki hazırlığı fənləri saxlanılır. Tədris planlarına dair qeydlərə əsasən, müvafiq ixtisaslı kadrları və maddi-texniki, tədris bazası olan ümumtəhsil məktəblərinin IX *(doqquzuncu)* sinfində fakültativ, fərdi və qrup məşğələlərinə ayrılan saatlardan 1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə "İnformatika" fənninin tədrisinə verilir. Kompüter kabineti olmayan ümumtəhsil məktəblərində İnformatika fənni üzrə praktik məşğələ keçilmir. Ümumtəhsil məktəblərinin IX-XI sinifləri üçün tədris planında həftəlik dərs saatlarının miqdarına əsasən, informatika fənninə 1 saat ayrılıb. 2015-2016-cı dərs ilində ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-VIII sinifləri üçün tədris planında informatika fənnindən siniflər üzrə həftəlik dərs saatlarının miqdarı 1 saat müəyyənləşdirilib. Həmçinin 2015-2016-cı dərs ilində azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planında İnformatika fənnindən siniflər üzrə həftəlik dərs saatlarının miqdarı 1 saat nəzərdə tutulub.

Dərs saatları azaldılan fənləri tədris edən müəllimlərin taleyinə gəlincə isə Təhsil Nazirliyindən mətbuata bildirilib ki, bəzi fənlərin ləğv edilməsi onu tədris edən müəllimin maddi durumuna təsir etməyəcək. Bunun üçün həmin müəllimlərə yaxın məktəblərdə dərs saatının verilməsi istiqamətində işlər aparılacaq. Təhsil Nazirliyinin məlumatına görə, artıq yerli təhsil idarəetmə orqanlarına bununla bağlı müvafiq tapşırıq verilib ki, həmin müəllimlər dərs yüksüz qalmasın. Təhsil Nazirliyinin bu tapşırığına nə dərəcədə əməl olunacaq, bunu zaman göstərəcək. Ancaq real olan odur ki, dərs yükü azaldılan müəllimlər maddi baxımdan istər-istəməz sıxıntı çəkəcəklər. Dərs yükü azaldılan müəllimlərin başqa məktəbdə dərs demək məsələsinə gəlincə isə indi başqa məktəbdə işə düzəlmək üçün bir çox hallarda rüşvət verməli olursan.

**Azad Müəllimlər Birliyinin rəhbəri Məlahət Mürşüdlü informatika müəllimlərinin çatışmadığını dedi:** "10-11-ci siniflər universitetlərə hazırlıq mərhələsidir. Burada artıq təmayülləşmə gedir. Şagirdin marağı, bacarığı nəzərə alınır. İnformatika dərsləri birbaşa elmi nəzəri hissədən çox, praktiki vərdişlərin aşılanmasıdır. Bizim tədris proqramları aşağı siniflərdə bunu nə dərəcədə mükəmməl öyrətmək imkanına malikdir? Şagirdin yaş dövrü, yadda saxlama, qavrama dövrü var. Bu baxımdan 9-cu sinfə qədər bu dərsin saatlarının 1 saat yox, 2 saat olmaqla tədris edilməsi daha məqsədəuyğun və



**Məlahət Mürşüdlü:**
"Nəzarət mexanizmi dürüst işlənilərsə, müəllimlərin narahatlığına heç bir səbəb olmayacaq"



**Etibar Əliyev:**
"Təhsilin təmayüllər üzrə aparılması "repetitor xəstəliyi"ni aradan qaldırmağa xidmət etməlidir"

effektlidir. O ki qaldı bu fənni tədris edən müəllimlərin işsiz qalmasına, bizim məktəblərdə informatika müəllimlərinə ehtiyac var. İnformatika müəllimləri çatışmadığı üçün bu dərsləri kimya, fizika, ən yaxşı halda isə riyaziyyat müəllimləri aparırlar. Buna görə də müəllimlərimizin dərs yükünün təmin edilməsi sıxıntı yaratmayacaq. Yəni müəllimlər dərslə təmin ediləcəkdir. Tutaq ki, 3 gün. Bu 3 gündə digər məktəbdə çalışaraq bunu edəcək".

**Müəllimlərin başqa məktəblərdə işə götürülərkən üzləşə biləcəyi problemlərə gəlincə isə ekspert bu məsələdə nəzarət mexanizminin vacibliyini vurğuladı:** "Sözsüz ki, müəllimlərin bu sıxıntısını, narahatçılığını bölüşürəm. Düşünürəm ki, Təhsil Nazirliyi bu prosesi ciddi nəzarətdə saxlamalıdır. Xüsusən də Bakı məktəblərinin, Bakı Təhsil İdarəsi informatika müəllimlərinin digər məktəblərdə dərs yükü ilə təmin edilməsini birbaşa özlərinin əmri ilə reallaşdırmalıdırlar".

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev tədrisin təmayüllər üzrə aparılmasının "repetitor xəstəliyi"ni aradan qaldırmağa xidmət edəcəyini bildirdi:** "Tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə aparılması "Təhsil haqqında" Qanunun tələblərindən irəli gəlir. Təmayülləşmənin əsas məqsədi şagirdin seçdiyi ixtisas üzrə meyl və marağına uyğun daha dərin hazırlığa malik olmasıdır. Böyük təhsil uğurları əldə edən ölkələrdə inkişafı şərtləndirən əsas meyarlardan biri təmayülləşməyə vaxtında başlamaq olub. Biz bu prosesdə xeyli gecikmişik. Məsələn, təhsil sistemi inkişaf etmiş elə ölkələr var ki, təmayülləşməni 6-cı siniflərdən başlayıblar. Təhsil Nazirliyinin 2015-2016-cı dərs ilindən 10-11-ci siniflərdə tədrisin təmayüllər üzrə təşkil olunmasında 50 pilot məktəbin seçilməsi düzgün addımdır. Bu sonradan nəticələrin təhlili və qiymətləndirilməsi, həmçinin əhatə dairəsinin genişlənməsinə şərait yaradacaq. Artıq 4 təmayül (texniki, riyaziyyat-iqtisadiyyat, humanitar, təbiət) istiqamətinin tədris planları təsdiq edilib. Təmayül istiqamətindən asılı olmayaraq, tədris planlarında Azərbaycan dili (rus bölməsində rus dili), xarici dil, ədəbiyyat, riyaziyyat, Azərbaycan tarixi, fiziki tərbiyə, gənclərin çağırışa qədərki hazırlığı fənlərinin saxlanması xoş niyyətdən xəbər verir. Təmayüllü məktəblərdə informatika fənninin tədris planında yer almamasına gəlincə, nəzərə almaq lazımdır ki, təmayülləşmə 10-11-ci sinifləri əhatə edir və informatika fənni üzrə məktəblilər I-IX siniflərdə biliklər qazanırlar. Mən tədris planları ilə tanışam. Məsələn, texniki təmayüllü siniflərin tədris planında informatika fənninin tədrisi həftədə 8 saat nəzərdə tutulur. Bu normaldır. Təmayül məktəblərdə İKT-nin seçmə fənn kimi tədrisi qadağan olunmamalıdır. Bundan başqa, dərsdənkənar məşğələlərin məzmun istiqamətləri müəyyən olunarkən İKT bacarıqlarının inkişafına diqqət yetirilməsi tövsiyə edilir. Təhsilin təmayüllər üzrə aparılması "repetitor xəstəliyi"ni aradan qaldırmağa xidmət etməlidir. Təmayülləşmədə mövzuları mürəkkəbləşdirmədən dərinləşmiş şəkildə tədrisi vacibdir. Təmayüllü məktəblərdə müəllimlər peşəkar qabiliyyətlərini inkişaf etdirməlidirlər. Bu istiqamətdə nazirliyin apardığı maarifçilik işləri təqdirəlayiqdir".

❑ Günel MANAFLI

# "Space"nin efirində baş verən biabırçılıq aranı qatdı

## "Günaydın"ın günü qaraldı; **Qulu Məhərrəmli:** "Televiziyalar cəmiyyət üçün ciddi təhlükəyə çevrilir"

**Son vaxtlar televiziyalarda aparıcıların və verilişə dəvət olunan qonaqların əndazədən çıxan davranış və hərəkətlər nümayiş etdirməsi, cəmiyyət və onun dəyələrini təhqir etməsi bir növ dəb halını alıb. Bugünlərdə "Space" televiziyasında yayımlanan "Günaydın" verilişində baş verənləri isə əsl biabırçılıq adlandırmaq olar. Belə ki, Vüsalə Kərimovanın aparıcılıq etdiyi verilişdə müğənni Mətanət Əsədova ilə yazar Əziz Musaoğlu bir-birilərinə qarşı qeyri-etik sözlər işlətdilər. Onların bu hərəkətinə mətbuatda, sosial şəbəkələrdə tənqidi reaksiyalar gəlib. Mütəxəssislər isə bildirirlər ki, verilişdə başqasının şərəf və ləyaqətinin təhqir olunması faktı var.**

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan əməkdar jurnalist, tele-tənqidçi Qulu Məhərrəmli baş verən olaya görə aparıcını günahlandırıb:**

"Niyə aparıcı bu cür insanları efirə dəvət edir? Ümumiyyətlə, verilişdəki mövzunun məğzi məlum deyil. İkinci bir tərəfdən, videolardan görünür ki, bu cür qeyri-etik dialoqlar gedir, amma aparıcı nədənsə məsələyə müdaxilə etmək istəmir, sanki burda çox dəyərli dialoq gedir və bu dialoqu pozmaq istəmir. Söhbətin getdikcə dramatikləşdiyini görən rejissor məsələyə müdaxilə etməli idi. Lakin görünür, rejissor da hadisələrin axınına tabe olur. Digər tərəfdən, əlbəttə, belə olaylarda televiziya rəhbərliyinin də günahı var. Bu məsələ cəmiyyət üçün ciddi təhlükə yaradır. Hər telekanal öz aparıcılarını, qəhrəmanlarını yetişdirir. Görünür, bizim televiziya rəhbərləri bu cür aparıcılar yetişdirməkdə maraqlıdırlar".



Qulu Məhərrəmli

**Tele-tənqidçi efirlərdəki xoşagəlməz olayların cəmiyyətdə baş verən proseslərlə bağlı olduğunu deyib:** "Əslində televiziyalar cəmiyyətin müəyyən cizgilərini əks etdirir. Bu, həyat tərzidir, insanların bir-biri ilə sərt, kobud davranışının təcəssümüdür. Artıq insanlar bir-birilərini anlaya bilmir. Bu bir virusdur, cəmiyyətə yoluxduqca insanların həyat , düşüncə tərzinə çevrilir və nəticədə də bu cür xoşagəlməz hallar baş verir".

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) aparat rəhbəri Toğrul Məmmədov bu barədə mətbuata açıqlama verərək bildirib ki, adıçəkilən verilişdə "Televiziya və radio yayımı haqqında" Qanunun 32-ci maddəsi, proqrama verilən tələblər pozulub. Onun sözlərinə görə, artıq MTRŞ bu məsələni "Space" televiziyasının rəhbərliyi ilə müzakirə edib:**

"Rəhbərlik üzrxahlıq edərək ciddi tədbir görəcəyini öz öhdəsinə götürdü. Biz də bunu nəzərə aldıq. Şura verilən vədin əməl olunmasını gözləyəcək. Olayla bağlı ciddi tədbir görülməsə, MTRŞ sərt addımlar atacaq. Hadisənin canlı efirdə baş verməməsi bunun reytinq xətrinə atılmış addım olduğunu təsdiqləyir. Hətta canlı efirlərdə belə, məsələn, ANS telekanalı yayımı 4-5 dəqiqə gecikdirir və xoşagəlməz halların qarşısını alır. Hadisənin bütün məsuliyyəti "Space"nin çiynindədir. Rəhbərlik bununla bağlı ciddi addımlar atmalıdır".

**Verilişin aparıcısı V.Kərimova axşam.az-a açıqlamasında müğənninin haqlı tərəf olduğunu bəyan edib:** "Əslində Əziz Musaoğlu studiyada Mətanətdən üzr istədi. O isə üzrü qəbul etmədi və qarşı tərəfi məhkəməyə verəcəyini dedi. Mətanət xanıma haqq qazandırıram, çünki geyimi pis deyildi. O, sənətçidir, səhnə adamıdır. Necə istəsə, geyinə bilər. Həm də xanımdır. Gərək ona qarşı o cür ifadə olmazdı. Buna görə də Mətanət Əsədova bu qalmaqalda haqlı tərəfdir".

**Verilişin digər qonaq qismində iştirakçısı olan müğənni Manaf Ağayev də baş verən qalmaqalda yazar Əziz Musaoğlunu günahlandırıb. Onun sözlərinə görə, hətta yazarın müğənni Mətanət Əsədovaya dediyi təhqiredici ifadələrin əksəriyyəti efirə verilməyib:**

""Verilişin ortasında Əziz Mətanətə dedi ki, "Səndən xoşum gəlmir, pis geyinmisən, küçə qızısan, filansan". Onun təhqirli sözlərinin çoxu efirə getmədi. Sonra başa düşdü ki, səhv edib, üzr istədi. Dedi ki, "Bilmədim, məni bağışla". Mətanət cavab verdi ki, "Sən kimsən, məni təhqir edirsən?"

Qeyd edək ki, adıçəkilən verilişdə M.Əsədova "Mən müğənniyəm, bəs sən kimsən?" sualına yazar təhqiramiz şəkildə cavab verib. Müğənni M.Əsədova yazar Əziz Musaoğlunu məhkəməyə verəcəyi ilə hədələyib.

Xatırladaq ki, bundan öncə də "Space" televiziyasında bu cür xoşagəlməz, qeyri-etik qalmaqal baş vermişdi. Samir Biləsuvarlı adlı müğənni oxuduğu mahnının sözlərini dəyişərək söyüş dolu ifadələrdən istifadə etmişdi. Lakin televiziyanın rəhbərliyi bu məsələyə çox etinasız yanaşmışdı.

**"Biz iyul ayının 17-si "Günaydın" verilişi ilə vidalaşacağıq". Bu sözləri "Space" TV-nin rəhbəri Vaqif Mustafayevin köməkçisi Nahid bəy həmin kanalda yayımlanan "Günaydın" verilişində yaşanmış məlum qalmaqalla bağlı axar.az-a danışarkən deyib:** "Məndə rəsmi məlumat yoxdur, amma eşitdiklərimdən deyə bilərəm ki, ayın 17-si biz "Günaydın" verilişi ilə vidalaşacağıq".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

# Deputatlar bu yay harada dincələcək?

## Kimisi Bakıda, kimisi rayonda olacaq, bəziləri isə seçiciləri ilə görüşəcək

**Yay ayları həm də istirahət mövsümüdür. Cəmiyyətin ən yüksək rütbəli məmurundan ən sadə insanına qədər elə insan çətin tapılar ki, yayın ən azı bir həftəsini iş mühitindən ayrılıb bütövlükdə istirahətə həsr etməsin. Kimisi qohumlarının yaşadığı rayona, kimisi hansısa istirahət mərkəzinə, kimisi də xarici ölkələrdən birinə səfər edib yay tətilini dəyərləndirir.**

Bəs görəsən, bu yay Milli Məclisin üzvləri harada dincəlməyi planlaşdırır? Millət vəkilləri yay istirahətini harada keçirəcək? "Yeni Müsavat" olaraq bu suala aydınlıq gətirmək üçün bir neçə millət vəkili ilə əlaqə saxladıq. Söhbət əsnasında onların Azərbaycan turizminə, xidmətlərin qiymət və keyfiyyətinə münasibətini də öyrənməyə çalışdıq.


Vahid Əhmədov


İqbal Ağazadə


Zahid Oruc

**Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Əli Məsimli qəzetimizə açıqlamasında bildirdi ki, Bakıda dəniz kənarında istirahət etməyə üstünlük verir:** "İstirahətimi Bakıda və anadan olduğum Şəki şəhərində keçirməyə çalışıram. Hansısa xüsusi turizm obyektində istirahət etməyi nəzərdə tutmamışam. Mən ümumiyyətlə xaricdə istirahət etməmişəm və bu dəfə də Azərbaycandan kənara istirahət üçün getməyəcəyəm. Mən ümumilikdə istirahət sözünü başa düşmürəm. Yay tətili dövründə də mən işlərimi davam etdirirəm".

**Ölkədaxili turizm obyektlərinin xidmətlərini qiymətləndirən millət vəkili bildirdi ki, Azərbaycanda son zamanlar başa düşürlər ki, bu cür qiymətlərlə turizmi inkişaf etdirmək olmaz:** "Ona görə də son zamanlar qiymətlərə güzəştlər tətbiq etməyə başlayıblar. Ancaq hələ də qiymətlər qonşu Gürcüstanla müqayisədə çox yüksəkdir. Ona görə də qiymətin yüksək olduğu yerlərə turistlər gəlmir. Ən böyük reklam odur ki, turistlər bir-birinə deyir ki, Azərbaycanda yaxşı ucuz qiymətə hərtərəfli istirahət etmək mümkündür. Bu reklam ən güclü reklamdır. Ancaq qiymətlərin baha olması həmin reklamı öldürür və imkan vermir ki, Azərbaycana gələn turistlər öz ətrafındakı insanlara, dostlarına, qohumlarına ölkəmizin turizmini məsləhət görsünlər və onların da Azərbaycana gəlməsini stimullaşdırsınlar".

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc da yay istirahətinə önəm verdiyini bildirdi:** "Yaxşı istirahət etmədən yaxşı çalışmaq da mümkün deyil. Allah insanın enerjisini limitli yaradıb, enerji tükənir və onu bərpa etmək lazımdır. Mən əvvəl başqa düşüncə ilə yaşayaraq yay dövrünü də çalışmağa həsr etmişəm. Ancaq sonrakı dövrlərdə hiss etdim ki, yayın istirahət üçün yaratdığı imkanlardan itifadə etmək lazımdır. İstirahət üçün xarici ölkələrə getməyi planlaşdırmıram, hətta ən yaxın məkan olan Yesentukiyə də getməyəcəyəm. Sadəcə bağ şəraitində istirahət edəcəyəm. Lakin telefonum hər zaman açıq olacaq. Bilmirəm belə olan məqamda bunu istirahət adlandırmaq olacaqmı? Ölkə daxilində hər hansı bir turizm məkanına da getmək fikrində deyiləm".

**Millət vəkili həmçinin yerli turizm obyektlərinin qiymətlərini və xidmət səviyyəsini tənqid etdi:** "Çox təəssüf ki, Azərbaycan təbiətinin verdiyi turizm imkanlarından biz faydalana bilmirik. Turizm Azərbaycan insanı üçün əlçatmaz olaraq qalmaqdadır. Biz hətta qonşu rusların belə buraya gəlişini təmin edə bilmirik. Təkcə ona görə yox ki, Türkiyə, Misir və digər ölkələr daha çox turistləri cəzb edir, uzaq xaric həmişə arzulanan olur. Bu həm də ona görədir ki, biz servis imkanlarına və qiymətlərə görə həmin ölkələrlə rəqabəti təmin edə bilməmişik. Turizm infrastrukturunu elə təkmilləşdirmək və qiymətləri elə tənzimləmək lazımdır ki, Azərbaycan insanı çox böyük bir investisiyanı Gürcüstana, Türkiyəyə və ya Avropaya aparmasın".

**Millət vəkili İqbal Ağazadə isə bu yay istirahət etməyəcəyini və mütəmadi olaraq iş başında olacağını qeyd etdi:** "Mən bütün yayı iş başında olacağam. Seçki ilidir, seçkilərə hazırlıq işləri gedir, bu baxımdan məzuniyyət düşünmürəm. Yəqin ki, bu yay istirahətim olmayacaq. Turizm obyektlərinin qiymətləri barədə də bir o qədər məlumatım yoxdur. Çünki sonuncu dəfə harada dincəldiyim yadıma düşmür. Nə xaricdə, nə ölkə daxilində nə zaman istirahət etdiyimi xatırlamıram. Demək olar ki, heç vaxt istirahətə getməmişəm, yay istirahətini keçirməmişəm".

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə yayı Bakıda olacağını və istirahət üçün harasa getməyi nəzərdə tutmadığını vurğuladı. Millət vəkili yerli turizmin xarici turizmlə rəqabətə hazır olmadığını da qeyd etdi:** "Düşünürəm ki, sistemli şəkildə turizm industriyasını inkişaf etdirmək və bunu Azərbaycan iqtisadiyyatının çox mühim bir sahəsinə çevirmək üçün işlər görülməlidir. Söhbət təkcə qiymətlərin yüksək olmasından getmir. Qiymətlərin ucuzlaşması ilə yanaşı, xidmətlərin səviyyəsi də yüksəlməlidir. Həm yerli əhalinin, həm də xarici turistləri cəlb etmək üçün bu çox önəmlidir. Yerli əhalinin xarici turizmə marağının artması da normal prosesdir. Ancaq onu da etiraf etməliyik ki, Azərbaycan turizmi öz üzərində çox işləməlidir ki, xarici turizmlə rəqabətə hazır olsun".

❑ **Nərgiz LİFTİYEVA**

# Bakıdan 10 milyon manatla qaçan iş adamı haqda şok məlumatlar

## Elman Tağıyevin "aradan çıxmasına" məhkəmə qərarı yol açıb

**"Birlik-İnşaat" MMC və "Hayan-E" MMC-nin rəhbəri Elman Tağıyev barəsində axtarış elan edilib. 1963-cü il təvəllüdlü E.Tağıyev Cinayət Məcəlləsinin 178-ci - dələduzluq, 308-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 318-ci - Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə və 213-cü - vergidən yayınma maddələri ilə təqsirli bilinir.**




E.Tağıyevin adı "Yeni Müsavat" oxucularına 2013-cü ildən tanışdır. Milli Teleradio Şurasının sədri Nuşirəvan Məhərrəmlinin əmisi oğlu olan E.Tağıyevin 210 mənzili 543 nəfərə təkrar satdığını 3 il əvvəl yazmışdıq. Vətəndaşlara ümumilikdə 10 milyon manatdan çox ziyan vuran E.Tağıyev və onun ətrafında olan şəxslərin qanunsuz hərəkətləri ilə bağlı başlanmış cinayət işinə 2014-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılırdı.

Qeyri-obyektiv, qanun pozuntuları ilə keçirilən məhkəmə proseslərində zərərçəkənlərin haqlı mövqeyi hakimlər tərəfindən süngü ilə qarşılanırdı.

"Yeni Müsavat" 15 dekabr 2013-cü il tarixli sayında "Məhkəmə vətəndaşlara 10 milyon "atan" sahibkarı müdafiə edir" sərlövhəli yazı dərc edilmişdi.

"Birlik İnşaat" rəhbəri Elman Tağıyevin əməllərindən zərərçəkən vətəndaş Şaiq Aqil oğlu Həsənov redaksiyamıza müraciət edərək bildirmişdi ki, məhkəmə Elman Tağıyev barəsində seçilən həbs-qətimkan tədbirini müəmmalı şəkildə ev dustaqlığı ilə əvəzləyib. Ş.Həsənov iş üzrə təqsirləndirilən Eyvaz Fərəcovun saxlanıldığı təcridxanada müəmmalı şəraitdə öldüyünü də qeyd etmişdi.

**Həmin yazıdan sitat:** "İttiham aktından və məhkəmə prosesinin gedişatından da tam sübuta yetirilir ki, 543 nəfərin MMC-yə ödədiyi pulların təxminən 95-96 faizi birbaşa Elman Tağıyevə, 3-4 faizi baş mühasib işləmiş Roza Maniçayevaya, təxminən 1 faizi isə barəsində həbs-qətimkan tədbiri seçilmiş digər 3 nəfərə verilib. Elman Tağıyevin daşınan və daşınmaz əmlakları təxminən 3 milyon 500 min manat civarında dəyərləndirilib. Elman Tağıyevin doğma qardaşı Məhərrəm Məhərrəmov Baş Prokurorluğa Abşeron rayonu, Xırdalan şəhəri, Axundov küçəsi 39 ünvandakı çoxmərtəbəli yaşayış binasının tikintisi ilə bağlı zaminlik ərizəsi ilə müraciət edərək, binanın 18-24 ay müddətində yüksək keyfiyyətlə tikib 210 nəfər zərərçəkmiş şəxslərə verilməsini öz üzərinə götürüb. Lakin 24 ay müddəti bitsə də, binada heç bir iş görülmədi. Elman Tağıyev də 24 ay müddətində zərərçəkmişlərə dəymiş maddi və mənəvi ziyanın yalnız və yalnız 0,5 faizini ödəməklə işini bitmiş hesab etdi. 112006054 saylı cinayət işi istər Baş Prokurorluqda, istərsə də Bakı Ağır Cinayətlər Məhkəməsində qeyri-obyektiv aparılıb, təqsirləndirilən Elman Tağıyevin daşınan və daşınmaz əmlakları tam qeydiyyata alınmayıb, məhkəmə prosesi zamanı zərərçəkmişlərdən mənimsənilən 7 milyon manat pulun qaranlıq taleyinə aydınlıq gətirilmir. Hətta 7 milyon manatla bağlı Elman Tağıyevə suallar verildikdə hakim Novruz Kərimov hər dəfə narahatçılıq hissi keçirdi. Çünki onun savadsız və çılğın olduğunu bilirdi və deyirdi ki, Elman ağzına gələn sözü deyə bilər, amma bütün bunlar nəzərə alınmayacaq və protokola qeyd olunmayacaqdır! Mən də dəfələrlə bildirmişəm ki, əgər bu sualla bağlı Elman Tağıyevin verdiyi cavab nəzərə alınmırsa və protokola qeyd olunmursa, onda nə üçün ona bu sual verilir, çox yaxşı olardı ki, bu sual onun doğma qardaşı, məmur Məhərrəm Məhərrəmova verilsin. Çünki Məhərrəm müəllim Baş Prokurorluqda yaşayış binasının tikintisi ilə bağlı zaminlik vərəqəsinə imza atmaqla faktiki olaraq zərərçəkmişlərə dəymiş 7 milyon manat pulun altına girib. Lakin həmin ünvanda iş görmək əvəzinə Bakı şəhərinin müxtəlif ərazilərində yüksək mərtəbəli binalar tikdirir".

Ş.Həsənov bildirmişdi ki, hakim zərərçəkmişlərin uzunmüddətli və qətiyyətli tələbindən sonra nəhayət ki, 18 noyabr 2013-cü ildə M.Məhərrəmovu məhkəməyə çağırıb. Lakin hakim Novruz Kərimov onun qonaq qismində çağırıldığını bildirməklə suallara cavab verməsini əngəlləmişdi.

Hazırda aktual olan suallardan biri də ölkədən qaçaq düşən E.Tağıyevin əvəzinə binaların tikintisini başa çatdırmaq öhdəliyini götürən M.Məhərrəmliyə qarşı istintaq orqanlarının hərəkətə keçməsi ilə bağlıdır.

**Mövzuya qayıdacağıq.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 142 (6170) 2 iyul 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Avropa Oyunları bitdikdən sonra Dağlıq Qarabağ probleminin gündəmə artıq öz əvvəlki "biçimində" qayıdacağı gözlənilir. Hər halda, beynəlxalq idman yarışı onsuz da unudulmaqda olan problemi daha arxa plana itələmişdi. Bəzi təhlilçilərə görə, oyunların yaratdığı məcburi taym-autun ardınca cəbhə bölgəsində vəziyyət qəfildən kəskinləşə də bilər.**





# Qarabağ müstəvisində yeni diplomatik həmlə

## "Sürünən müharibə" ehtimalının artması belə bir imperativi ortaya çıxarıb; Rusiyanın Ermənistanı itirməmək istəyi sülh perspektivinə əlavə təhlükələr vəd edir…

Bu xüsusda düşmən tərəf artıq öz təlaşını ortaya qoyub. Ermənistanın müdafiə naziri Seyran Ohanyan bildirib ki, Avropa Oyunlarından sonra təmas xəttində Azərbaycan guya situasiyanı ağırlaşdıran addımlara gedə bilər.

Əslində hazırda işğalçı ölkə daxilində hakimiyyət əleyhinə davam edən etiraz aksiyaları cəbhə xəttində yeni eskalasiyaları, yeni bir mini-müharibə riskini daha real edir. Çünki o halda Serj Sərkisyan rejimi daxili ictimai diqqəti xarici təhlükəyə yönəldib özünə qarşı təzyiqləri azaltmış olardı.

Ancaq hadisələrin bu cür inkişafı rəsmi İrəvan üçün əks-effekt də verə bilər. O baxımdan ki, yeni əsgər ölümləri Ermənistan rəhbərliyini daha çıxılmaz duruma salar. Üstəgəl, Rusiyanın Ermənistandakı etirazlarda özünü göstərən anti-Rusiya meyllərinə zərbə vurmaq üçün belə itkilərə zəmin yaradacağı istisna edilmir.

Artıq Moskvadan buna bənzər xəbərdarlıqlar səslənib. Rusiyalı politoloqlardan biri bildirib ki, İrəvanda vəziyyət nəzarətdən çıxsa, Moskva proseslərə daha fəal müdaxilə edəcək, Ermənistana Dağlıq Qarabağ məsələsi vasitəsilə təsir edəcək.

***

Bir şey dəqiqdir və Ermənistandakı proseslərə Rusiyadan olan reaksiyalar da bunu göstərdi ki, Kreml postsovet məkanındakı əsas forpostunu elə-belə əldən buraxmayacaq və lazım gəlsə, hətta yeni Qarabağ müharibəsinə stimul yaradacaq. Bu mənada rusiyalı deputatlardan birinin söylədiyi fikir də diqqətçəkicidir. Demişdi ki, "postsovet məkanında Rusiyanın faktiki, iki müttəfiqi var - Ermənistan və Belarus. Onu da Amerika əlimizdən almaq istəyir..."

**"The Wall Street Journal"ın bu mövzuda müşahidəsi də maraq kəsb edir. Jurnal Kremlin Ermənistandakı hadisələrə görə həyəcan içində olduğunu yazıb (axar.az). Qəzetin iddiasına görə, Sərkisyan Moskvanın yaxın müttəfiqidir və Kreml onun fəaliyyətsizliyindən narahatdır:** "Ermənistan prezidenti və onu rusiyalı himayədarları artıq xalqın nə dərəcədə narazı olduğunu hiss edirlər. Kreml buna görə İrəvana hərbi yardım məqsədilə 200 milyon dollarlıq kredit verib. Moskva həmçinin rus əsgəri, qatil Permyakovu Ermənistan məhkəmələrinə təhvil verib. Putin üçün əsas olan Ermənistana qoyulan hərbi investisiyalardır. Gümrüdəki hərbi bazada 5 min əsgər var. Rusiya bunlarsız Xəzər dənizi və Mərkəzi Asiyanı idarə etmək qabiliyyətinə sahib deyil. Putin Qafqaza 2008-ci ildə Gürcüstandan ayırdığı parçalarla birgə öz imperiyasının bir hissəsi kimi baxır, həmçinin Ermənistanın da üzv olduğu Avrasiya İttifaqında sabitlik istəyir".

***

Moskvanın obyektiv narahatlığı, Rusiyadan gələn mesajlar əslində böyük güclərin Dağlıq Qarabağ amilindən geosiyasi faktor kimi yaxın perspektivdə daha güclü şəkildə yararlanmağa çalışacağından xəbər verir. Deməli, Qarabağ sülh danışıqlarının, diplomatik səylərin çəkisi xeyli artmış kimidir. Onu da nəzərə alsaq ki, yay mövsümü hərbi əməliyyatların aparılması üçün ən əlverişli dövr hesab edilir, o zaman Dağlıq Qarabağ müstəvisində tezliklə yeni diplomatik həmləyə ehtiyac duyulduğu ortaya çıxar.

Bu imperativi ABŞ-ın Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin Avropa Oyunları zamanı Bakı və İrəvana etdiyi səfərdən görmək olardı. Amerikalı diplomat müharibə ehtimalından narahatlığını açıq şəkildə ifadə edərək demişdi ki, vasitəçilər tezliklə Azərbaycan və Ermənistan prezidentlərinin - İlham Əliyev və Serj Sərkisyanın növbəti görüşünün baş tutması üçün səylərini artıracaqlar. Birləşmiş Ştatların Azərbaycandakı səfiri Robert Sekuta da analoji açıqlama vermişdi.

***

Hər şeydən göründüyü kimi, qarşıdakı yay ayları Dağlıq Qarabağ problemi ətrafındakı situasiya üçün məxsusi bir sınaq dövrü olacaq. Bir sıra hərbi analitiklər bu dövrün kifayət qədər gərgin keçəcəyini istisna eləmirlər. Təbii ki, vəziyyətə Ukraynadakı, Donbasdakı proseslərin də təsiri qaçılmaz olacaq. Əgər Rusiya Ukraynanın Cənub-Şərqində yeni hərbi avantüraya qol qoysa, o zaman Qərblə yeni qarşıdurmanın əsk-sədası mütləq Güney Qafqazda, Qarabağ konflikti zonasında da və danışıqlar müstəvisində də duyulacaq.

Hərçənd amerikalı diplomat Uorlik bildirib ki, Qarabağ məsələsində ABŞ-la Rusiya arasında fikir ayrılığı yoxdur. Gerçəklik isə əlbəttə ki, başqa şeyi deyir. Ən azı ona görə fikir ayrılığı var ki, Vaşinqton və Moskvanın Qarabağ ixtilafından güddüyü maraqlar bir-birinə diametral ziddiyyət təşkil edir.

Məhz bu ziddiyyət özünü ötən ilin avqustunda təmas xəttində "3 günlük müharibə" zamanı bir daha qabarıq şəkildə göstərmişdi. Həmin eskalasiyada bəzi təhlilçilər "Amerika izi" görsələr də, əksəriyyət "rus barmağı" tapmışdılar. Motiv aydın idi - Kreml bununla konfliktə, münaqişə tərəflərinə ən güclü təsir rıçaqının olduğunu nümayiş etdirmək, Qərbə "əzələ" göstərmək istəmişdi. Ardınca Putinin təşkil etdiyi Soçi görüşü də Rusiyanın Qarabağ məsələsində siyasi-hərbi imkanlarının nümayişinə hesablanmışdı.

***

Moskva belə bir "əzələ nümayişi"nə təkrar ehtiyac duya bilərmi? Sualın cavabı yeqin ki, Qərbin Qarabağ müstəvisində nə dərəcədə çevik diplomatik addımlar atacağından asılı olacaq. Bu yerdə yada salaq ki, prezidentlərin sonuncu görüşü ötən il oktyabrın 27-də, Parisdə baş tutub və hər hansı birgə sənədin və ya bəyannamənin qəbul edilməməsi ilə yekunlaşıb. Yəni nəticəsiz başa çatıb.

Paris sammitindən sonra növbəti belə görüşün bu ilin sentyabrında - BMT Baş Məclisinin illik toplantısı çərçivəsində olacağı anons edilmişdi. Sentyabra kimi isə qarşıda hələ iki təhlükəli ay durur - iyul və avqust.

Əlbəttə ki, Azərbaycan işğal altındakı torpaqlarını istənilən vasitələrlə azad eləmək hüququna malikdir və sonsuzadək səmərəsiz sülh danışıqlarının iştirakçısı ola bilməz. Ölkə özünün hərbi qüdrətini boşuna artırmır, silah-sursat da vitrinə qoyulmaq üçün deyil...

# "Qırmızı Xaç" əməkdaşları Dilqəm və Şahbaza baş çəkiblər

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən azərbaycanlılara baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib ki, başçəkmə iyunun 24-də baş tutub (APA).**

BQXK-nın nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailə məlumatlarını çatdırıb, onlardan da ailələri üçün məlumat alınıb. İ. Hüseynovanın sözlərinə görə, BXQK mandatına uyğun olaraq, saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraitini və onlarla davranışı monitorinq etsin və bu insanların ailələri ilə əlaqə saxlamasına yardımçı olsun.

Xatırladaq ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.



İşğal altındakı Dağlıq Qarabağda Əsgərov və Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Bakıda sevgilisi ilə öpüşən oğlan öldürüldü



**Qız ilə öpüşməsi 1990-cı il təvəllüdlü Yasamal rayon sakini Nazim Ələkbərovun ölümünə səbəb olub. Dünən gecə Nərimanov rayonu ərazisində yerləşən evlərin birində Ələkbərov beş bıçaq yarası alıb. Yaralını xəstəxanaya çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmayıb.**

Bu barədə məlumatı vesti.az Nərimanov Rayon Polis İdarəsinə istinadən yayıb. Fakt üzrə təqsirləndirilən yerli sakin 1991-ci il təvəllüdlü Kamran Həsənzadə həbs edilib.

Aydın olub ki, Ələkbərov Nərimanov rayonuna öz maşınında sevdiyi qızı görüşdən sonra evə ötürmək üçün gəlib. Maşında onlardan başqa Ələkbərovun dostu da olub. Ələkbərov dostuna maşında gözləməyi tapşırıb, özü isə qızı ötürməyə gedib. Binanın girişində onlar öpüşüblər.

Bu zaman qızın onların yanından keçən qonşusu Kamran Həsənzadə onlara irad tutub. "Öpüşməyə başqa yer tapmırsız? Ayıb olsun, qonşular görür axı", - Həsənzadə deyib.

Amma üzr istəmək əvəzinə Ələkbərov qızın qonşusunun cavabını vermək qərarına gəlib. O, maşına tərəf qaçıb ordan beysbol dəyənəyini götürüb və dostu ilə bərabər bloka qayıdıb.

Ələkbərov Həsənzadəyə bir neçə zərbə vurub. Həsənzadə iki dostunu yardıma çağırıb. Gənclər dava salıb. Həsənzadə qonşusunun sevgilisindən intiqam almaq istəyib, amma o, 1 metr 90 sm hündürlüyündə olub, Kamranın onunla əlbəyaxa dalaşmağa gücü çatmayıb.

Həsənzadə yaxınlıqda olan maşınına tərəf qaçaraq oradan bıçağı götürüb və geri qayıdıb, Ələkbərova beş bıçaq zərbəsi vurub. Yalnız qan görəndən sonra cavanlar sakitləşiblər. Polis idarəsindən Ələkbərovun içkili olduğu da qeyd edilib.

Baş verənlərdə Həsənzadə Ələkbərovu təqsirli bilib. Beləliklə, bina girişində öpüş Ələkbərovun həyatında son öpüş oldu. Fakt üzrə istintaq davam edir.

## Gəncə qiyamında iştirak edən keçmiş başçı həbsxanada öldü

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qobustanda yerləşən həbsxanasında məhkum ölüb. Hüquq müdafiəçisi Eldar Zeynalovun APA-ya verdiyi məlumata görə, dünyasını dəyişən şəxs 75 yaşlı Hüseynov Vaqif Rza oğludur. Məlumata görə, saxlanıldığı kamerada dünyasını dəyişən V. Hüseynov şəkərli diabet və digər xəstəliklərdən əziyyət çəkirmiş.**

Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəis müavini İftixar Qurbanov APA-ya açıqlamasında V. Hüseynovun xəstəlikdən dünyasını dəyişdiyini bildirib. Qeyd edək ki, V. Hüseynov 1993-94-cü illərdə Samux Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edib. O, 1993-cü ildə Gəncədə baş vermiş dövlət çevrilişində iştirakda və rayon prokuroru Şəmşir Əliyevin öldürülməsində günahlandırılaraq həbs olunub. Qeyd olunan işlərlə əlaqədar V. Hüseynovla yanaşı, onun oğlu və digər iki nəfər də tutulub. Məhkəmə V. Hüseynovun barəsində ölüm hökmü çıxarıb. Lakin sonradan V. Hüseynovun cəzası ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunub.

## Xeyli borcu olan mağaza sahibi özünü asdı

**Ağdaş rayonunda intihar hadisəsi baş verib. 57 yaşlı rayon sakini özünü asıb. Virtualaz.org saytının əldə etdiyi məlumata görə, 1959-cu il təvəllüdlü Rəhman Məmmədov işlədiyi avtomobil ehtiyat hissələri satışı mağazasında özünü asıb. Şahidlər hadisənin dünən saat 11:30-da baş verdiyini bildiriblər. İlkin məlumata görə, həmin mağazanın sahibi olan mərhumun külli miqdarda borcu olub.**

Ağdaş Rayon Polis Şöbəsindən virtualaz.org saytına faktı təsdiqlədilər. Amma əlavə məlumat vermədilər: "İntiharın səbəblərini rayon prokurorluğu araşdırır".

## Abşeronda ailənin bütün üzvləri öldü



**Abşeron rayonunda ani qığılcım 4 nəfərdən ibarət gənc ailənin çırağını əbədi söndürüb. Milli.az xəbər verir ki, Qobu qəsəbəsində bir neçə gün əvvəl fərdi yaşayış evində partlayış olub. Partlayış nəticəsində ata, ana və iki azyaşlı qız ağır yanıq xəsarətləri ilə Yanıq Mərkəzinə çatdırılıblar. Lakin həkimlər onların həyatını xilas edə bilməyiblər.**

Ailənin bütün üzvləri xəstəxanada dünyasını dəyişib. Onlar Beyləqan rayonuna aparılaraq dəfn ediliblər.

Hadisə atanın siqaret yandırması nəticəsində baş verib. O, evə qaz sızmasından xəbərsiz olub. Səhər tezdən siqaret yandırarkən ani partlayış baş verib.

## Daha bir iş adamı axtarışa verildi




**Azərbaycanda daha bir tikinti şirkətinin rəhbəri barəsində axtarış elan olunub. Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, "RUM" Mənzil Tikinti Kooperativinin direktoru, 1952-ci il təvəllüdlü Hüseynov İmran Bünyad oğlu Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilir.**

Qeyd edək ki, İ. Hüseynov Bakıda çoxmərtəbəli yaşayış binasında mənzilləri təkrarən ayrı-ayrı şəxslərə satmaqla 185 min 550 manat məbləğində özgə əmlakını aldatma və etibardan sui-istifadə etməklə ələ keçirməkdə günahlandırılır.

2015-ci ilin fevralında Baş Prokurorluq İ. Hüseynovun qanunsuz əməlləri və tutulması barədə məlumat yayıb.

Bakı Şəhər Baş Polis İdarəsi isə İ. Hüseynovun yenidən axtarışda olması barədə məlumat yayıb.

## Domodedovoda azərbaycanlıların kütləvi davası...

**Rusiyada Azərbaycan vətəndaşlarının iştirakı ilə kütləvi dava olub. APA-nın "İnterfaks"a istinadən verdiyi məlumata görə, Moskva vilayətinin Domodedovo rayonunda baş verən hadisə nəticəsində 3 azərbaycanlı və bir nəfər Özbəkistan vətəndaşı xəsarət alıb.**

Xəsarət alan azərbaycanlılardan birinin yeniyetmə olduğu bildirilir.

Davada 10 nəfər iştirak edib. Yaralanan şəxslər xəstəxanaya yerləşdirilib.

Rusiya Daxili İşlər Nazirliyinin mətbuat mərkəzindən bildiriblər ki, ən çox xəsarət alan Özbəkistan vətəndaşı olub. Hazırda o, huşsuz vəziyyətdədir.

Zərərçəkənlər bildiriblər ki, naməlum şəxslərlə yaranan mübahisə sonradan əlbəyaxa davaya çevrilib. Dava zamanı hücum edənlər (5-6 nəfər) soyuq silahdan istifadə ediblər. Onlar hadisə yerindən qaçıblar.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

* Arı südü
* Mumiya
* Möhtəşəm ağ bal
* İssık-Kul balı
* Esparset balı
* Çayek balı
* Karkıra balı və s.

**RAMAZAN AYI İLƏ ƏLAQƏDAR OLARAQ ORUC TUTANLARA ENDİRİM**

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**



Azercell

## AÇIQLAMA

**Son günlər mətbuatda gedən yazılara cavab olaraq bildirmək istərdik ki, Azercell şirkəti tərəfindən Whatsapp əlavəsinin istifadəsinə heç bir məhdudiyyət qoyulmayib və bununla bağlı şəbəkəmizdə heç bir problem qeydə alınmayıb.**

**Məlumat üçün bildirək ki, Azercell şirkəti bu proqramdan istifadə üçün yalnız mobil internet şəbəkəsini təmin edir və bu əlavədən istifadə zamanı baş verən nasazlıqlar üçün heç bir məsuliyyət daşımır.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Yay fəsli qapını döyən gündən evlərdə təmizlik işləri də artıb. Xalça-palaz yuyanlar, yorğan-döşək yununu yuyub, sırıyanlar, evin böyük təmizliyi... Yay fəsli təmizliyi sevir, amma eyni zamanda əziyyəti də. İndiki zamanda isə iş rejimi, ağır qrafik, bir çox hallarda xəstəlik, ən əsası ilə maddi imkan xanımlarımızı bu işdən imtinaya, daha doğrusu, onu başqasına gördürməyə sövq edir..**

# Yay təmizliyi ailələrin cibini necə “təmizləyir”...

## Qadınlar seriallardan həvəslənir, təmizlik şirkətləri ev əşyalarını maya qiymətinə təmizləyir; divan-kreslonu 120 manata, xalçanı 100 manata yuyan firmalar barədə bilmədiklərimiz

Elə gün olmur ki, telefonumuza bu və ya digər təmizlik şirkətindən sms gəlməsin: “Xalçalarınızın bu yay təmiz olmasını istəməzsiz?” elanı ilə. Üstəlik, elanlarda müştəriyə təqdim olunan ucuz qiymətlərlə reallıq arasındakı qosqoca fərq. Bu haqda bir qədər sonra.

**Bu, adi xalçadır, ya sehirli?**

Bildiyiniz kimi, indi xalça yudurtmaq üçün xeyli seçim imkanları var. Həyət, bağ evi olanlar bu qovurucu istilərdə xalçanı özləri, sırf zövq üçün yuyurlar. Daha bir seçim “moyka”lardır ki, burda da sahəsi 6 kvadrat metr olan xalçaların 15 manata yuyulması mümkündür. Xalçanın həcmi böyüdükcə təbiidir ki, qiyməti də artır. Bu halda daşınma xidməti xalça sahibinə aiddir.

Amma “qonşu xala”ların xidmətindən yararlanmaq istəsəz, sövdələşmə nəticəsində daha ucuz qiymətə bu işi həll etmək mümkündür. Bütün hallarda xalçanın ölçülərindən asılı olaraq qiymət dəyişə bilər. Bu iş üçün minimum 10, maksimum 30-40 manat ayırmaq lazım gəlir.

Keçək özəl firmalara. Hansılar ki, hər gün internetdə elanlarını yayır, mobil telefonuza mesajlar yollayırlar.

Başlayaq "Pak Xalça" firmasından. Bu firmada xalçanın kvadrat metrini 2.50 AZN-ə yuyurlar. İşdir, siz divan-kreslo təmizliyi üçün də firmanın köməyindən istifadə etmək istəyirsizsə, bu halda məsrəfiniz artacaq. Belə ki, 3 nəfərlik divanın təmizlənməsi 60, 4 nəfərlik divanınkı isə 80 manatdır. Bura iki ədəd kreslonun təmizliyini də əlavə etsək, qiymət müvafiq olaraq 100-120 manat olacaq.

"Dəniz Xalı" firmasında isə qiymətlər nisbətən ucuzdur. Burada xalçanın bir kvadrat metri 1.80 manata yuyulur. Divan 30 manat, kreslolar 10 manat, pərdə 2 manat(1 kvadrat metri), odeyal 10 manat, yorğan isə 15 manata yuyulur. Firmadan bizə bildirdilər ki, xalçanın yuyulması ilə bağlı verilən elanda bir “detal” qeyd edilməyib. Belə ki, xalçanın uzunluğu 5, eni isə 4 metr olarsa, hər kvadratmetrinin yuyulma qiyməti 3 manat olur. Pərdələrlə bağlı durum da elanda göstərildiyi kimi deyil. Belə ki, pərdənin ancaq tül hissəsi 2 manata *(çəkiyə müvafiq - bir kilosu)* yuyulur. Pərdənin günlüyü, yəni daha qalın hissəsinin bir kilosunun yuyulma məsrəfi isə 4 manatdır. Şirkətlər bir qayda olaraq, divan-kreslonu evdə təmizləyir. Amma digər təmizlənəcək əşyalar aparılır, firmada təmizləndən sonra geri qaytarılır. Bundan başqa, yorğan-döşək təmizliyi deyəndə da yun olmayanlar, yəni sentifonlar nəzərdə tutulur.

**Divan-kreslonu az qala onun maya dəyərinə yuyub təmizləyirlər**

**Özəl təmizlik firmalarından birinin təmizlik xidmətindən yararlanan Tahirə Mehdiyeva deyir ki, qiymətlərin bahalığından narazıdır:** “Evimiz qonaqlı-qaralıdır. Qonaqlıqlardan birində uşaqlar divana gilas şirəsi tökmüşdülər, ləkəsi getmirdi, kreslolar da çirklənmişdi. Özüm təmizləməyə risk eləmədim. Dedim, xlorun izi qalar, xarab olar. Telefonda demişdilər ki, 90 manata təmizləyərik. Gəldilər, divan-kreslonu bir yerdə təmizləməyə 130 manat istədilər. 3 dəfə belə təmizlik etdirsəm,



təzə divan-kreslonun pulu çıxar ki. Özlərinə də dedim ki, axı burda 130 manatlıq iş yoxdur. Dedilər, kimyəvi təmizlikdir, kimyəvi maddələr, istifadə etdiyimiz texnikanın qiyməti bahadır. Ondan sonra bir daha istifadə etmədim xidmətlərindən”.

Yorğan-döşək yununun yuyulması, qurudulub sırınması isə daha çox xalq arasında “köhnə arvadlar” deyilən, yaşlı qadınlara etibar edilir. Hansılar ki, yorğanı necə sırımağı bilir, onu qaydasına uyğun təmizləyib sahibinə qaytarır. Redaksiyamızın yaxınlığında bu cür xidmət göstərən yaşlı xalalardan biri ilə danışanda məlum oldu ki, bir yorğanı sırımaq üçün 15, döşək üçün adətən 30 manat alır. Onların işi yay aylarında daha çox olur. Buna səbəb toyların daha çox payız aylarına təsadüf etməsi, qızların cehizlərinin bu vaxt hazırlanmasıdır. Bundan başqa, yay aylarında qadınlar təmizliyə daha çox əhəmiyyət verir. Və hər şeydən önəmlisi, yay fəsli, isti hava yunun lazımi qaydada quruması üçün ideal fəsildir.

**Xadimələr insaflıdır, təmizlik şirkətləri “nemes üsulu” ilə işləyir**

Yazının girişində haqqında danışdığımız ev təmizliyi barədə də bir neçə kəlmə. Heç kimə sirr deyil ki, hazırda xadimələrin, təmizlikçi qadınların xidmətindən daha çox imkanlı təbəqə istifadə edir. Bu, müntəzəm həmin xidmətdən yararlananlara aiddir. Amma evi təmirdən yeni çıxan, xəstəsi olan, “künc-bucaq” ev təmizliyinə ehtiyacı olanlar zaman-zaman bu xidmətə müraciət edir. Xadimələrlə işləyən xanımlar daha çox anlaşma yolu ilə qiymətləri tənzimləyir. Birdəfəlik təmizlik xidmətinin məbləği 20-30 manat arasında dəyişir. Bura ütü xidməti daxil olmur. Amma həftədə 3 dəfə təmizlikçi xidmətindən istifadə edən qadınların bunun üçün aylıq 250 manat ödədikləri apardığımız sorğu nəticəsində üzə çıxdı. Sonuncu daha sərfəli üsul kimi görünür.

Təmizlik şirkətlərindəki qiymətlər isə “göydə uçur”. Məsələn, "BG Cleaninq" şirkətindən öyrəndik ki, təmizlikdən öncə şirkət evə öz işçilərini göndərməli, evə baxış keçirməlidir. Bu zaman təmizlik qiyməti müəyyənləşə bilər. Evin nə dərəcədə təmirli olması, əşyaların sayının azlığı-çoxluğu, evin təmizliyi qiymətin müəyyənləşməsində çox önəmlidir. Amma ikiotaqlı mənzilə iki nəfərlik heyət göndərəcəkləri və bunun üçün də qiymətin 140 manat olacağı firmadan bildirildi.

"Flower Cleaning" şirkətindən isə bildirildi ki, onlar da ədiyimiz otaq sayını 150 manata təmizləyirlər.

"Primeria Cleaninq" şirkəti isə kiçik evlərə bir xadimə göndərməklə kifayətlənir. Kiçik evlərin təmizlik işi üçünsə xadiməyə 30 manat ödəmək bəs edir.

**Sosioloq “qadınlar seriallardakı həyatı yamsılamağa çalışır” deyir...**

**Sosioloq Aytən İmanova hesab edir ki, müasir qadınlar fiziki işləri təmizlik şirkətlərinə, eləcə də xadimələrə həvalə etməklə öz yüklərini azaltdıqlarını düşünsələr də, bu zaman da maddi yükün altına girmiş olurlar:** “Bir qadın həftənin 5-6 günü, sutkada 8-9 saat çalışırsa, təbii ki, cəmi bir istirahət günündə özünü ev işlərinə həsr etmək istəməyəcək. Əgər qazancı normaldırsa, evə xadimə çağıracaq, bu işi ona gördürüb, fiziki yükünü azaldacaq. Amma bu, vərdiş halına çevrilsə, artıq ailə büdcəsi üçün ciddi məbləğə çevriləcək. Bu isə ailəni maddi yükün altına salacaq. Bu da problemdən çıxış yolu deyil”.

**Müsahibimiz hesab edir ki, bir çox hallarda qadınlar seriallarda, filmlərdə gördükləri həyatı öz gündəlik rejimlərinə daşımaq istəyirlər. Yəni öz görə biləcəyi işi də müxtəlif bəhanələrlə görmək istəmir ki, bu da ailədə problem yaradır:** “Xəstəlik, ağır iş qrafiki olduğu halda köməkçinin xidmətindən istifadə etməni anlayışla qarşılamaq mümkündür. Amma indiki ağır dolanışıq şəraitində bunu sırf kapriz üçün edən xanımların durumunu anlamaq çətindir”.

❑ **Sevinc TELMANQIZI**

# Enerji içkiləri sizi öldürə bilər...




## Ziyanlı təsirini nəzərə alaraq bir çox ölkələrdə bu məhsulların satışına qadağalar qoyulub

**İnsan səhhəti üçün zərərli olan və mütəmadi istifadə etdikdə asılılıq yaradan qidalar sırasına son illərdə biri də əlavə olundu. Siqaret və spirtli içkilərin ardından bu dəfə enerji içkilərinin istifadəsi artmaqdadır.**

Uşaqdan böyüyə hər kəsin əlində enerji içkilərinə rast gəlmək mümkündür. Lakin ötən gün Türkiyədə 22 yaşlı qızın enerji içkisindən dünyasını dəyişməsi bu içkilərin sağlamlıq üçün təhlükəli olduğunu bir daha gündəmə gətirdi.

Enerji içkilərinin sağlamlığa ziyanlı olması barədə bir çox iddialar olsa da bunun ölümə səbəb olması gözlənilməz idi. Bu gün də yüzlərlə insan qəbul etdiyi enerji içkisinin həyati təhlükəsini nəzərə almadan istifadə etməyə davam edir.

“Yeni Müsavat” bunu nəzərə alaraq enerji içkilərinin ziyanlı təsiri barədə ekspert rəyini təqdim edir.

**Tibb elmləri doktoru Adil Qeybullanın sözlərinə görə, energetik içkilərin tərkibində müxtəlif dərmanlar var, bunlardan insana ən çox təsir edən kofeindir:** “Kofein ürəyin fəaliyyətini gücləndirir. Ardıcıl olaraq enerji içkiləri içdikdə ürəyi həddindən artıq yormuş oluruq. Ürəyi zəif olan, ürəyində problem olan adamlarda bu orqanın həddindən artıq çalışması və kənar müdaxiləyə məruz qalması oksigen tələbatını da artırır. Nəticədə ürəyə gələn oksigenlə tələb olunan oksigen miqdarı arasında kəskin fərq yaranır ki, bu da insan səhhətində problemə səbəb olur. Uzun müddət enerji içkilərindən istifadə etmək ürək çatışmazlığına, ürək mədəciklərinin genişlənməsinə gətirib çıxara bilər”.

**Ekspert vurğuladı ki, allergiyaları olan, ürək ritminin pozulması problemini yaşayan, ürək çatışmazlığı olan şəxslərə bu içkilər ümumiyyətlə qadağan olunmalıdır:** “Yüksək qan təzyiqindən əziyyət çəkənlərə enerji içkilərindən istifadə olmaz. Eləcə də yaşlı insanlara da bu cür içkilər məsləhət deyil. Ancaq bunu birmənalı olaraq yaşla da əlaqələndirmək olmaz. Ola bilər ki, cavanların da ürək fəaliyyəti bu, içkidən istifadəyə imkan verməsin. Bu orqanizmin vəziyyətindən asılıdır. Uşaqların da enerji içkilərindən istifadə etməsi yolverilməzdir. Bu, ürəyin ritminin pozulmasına gətirib çıxara bilər. Mütəmadi olaraq enerji içkilərini qəbul edən insanları müayinə etsək görərik ki, bu, onlarda ürəyin ritminin pozulmasına gətirib çıxarır. Bu içkilərdən istifadə süni surətdə ürəyin ritmini artırır. Ancaq əslində buna lüzum yoxdur. Nəticədə ürək əzələsi həddindən artıq yorulur və müxtəlif fəsadlara gətirib çıxarır”.

Energetik içkilərin ziyanlı təsirini nəzərə alaraq bir çox ölkələrdə bu məhsulların satışına qadağalar qoyulub. Qonşu Rusiyanın Sankt-Peterburq şəhərində spirtli energetik içkilər qadağan olunub. Şəhər şurası spirtli energetik içkilərin qadağan olunması ilə bağlı qanun layihəsini təsdiqləyib. Tərkibində 1.5%-dən çox spirt olan energetik içki satan fiziki şəxsləri 3 min rubldan 5 min rubla qədər, hüquqi şəxsləri isə 200 min rubldan 300 min rubla qədər cərimə gözləyir.

Ölkəmizdə isə bu məhsulların satışı ilə bağlı heç bir məhdudiyyət yoxdur. Energetik içkilər hətta azyaşlı uşaqlara da rahatlıqla satılır. Təsadüfi deyil ki, enerji içkilərindən istifadə məktəblilər arasında geniş yayılıb. Ekspertlər isə həyəcan siqnalı çalır ki, əgər səhhətinizi qorumaq istəyirsinizsə, qısa zamanda menyunuzdan enerji içkilərini çıxarın.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
Son səhifə
N 142 (6170) 2 iyul 2015

# Duş almaq stressi çıxarır



**Türkiyəli psixoloq prof. Dr. Gülden Güvenç stressdən uzaq olmaq üçün duş qəbul etməyin faydalarından danışıb. Onun sözlərinə görə, imtahan verənlər də stress və depressiyadan uzaqlaşmaq üçün duş qəbul edə bilər. Bu sadə prosedur imtahan həyəcanını azaltmağa kömək edir.**

Duş alarkən diqqət yetirilməsi lazım olan su istiliyi və duşda keçirilən müddətdir. Çox isti su dəridə tarazlığı pozaraq bədəndəki təbii yağın yox olmasına səbəb olur. Uzun müddət suyun altında qalmaq isə dəri sağlamlığına mənfi təsir göstərə bilər. Bu baxımdan çox duşda olmamaq və duşdan sonra istəyə uyğun bitki mənşəli nəmləndiricilərdən istifadə etmək lazımdır. Dəri sağlamlığı üçün çirkli və ya küləkli yerlərdə olmamaq da məsləhətdir.

Onu da qeyd etmək lazımdır ki, Günəş şüaları xüsusilə bədəndə saxlanılan D vitamininin sintezində və sümüklərin inkişafında əhəmiyyətli rol oynayır.



## Xoruzun iki buynuzu çıxdı

**Türkiyənin Aydın şəhərində 31 yaşlı Dəniz İğci adlı gəncə İstanbulda yaşayan dostu tərəfindən pay olaraq göndərilən yumurtalardan biri şok yaradıb. Buna səbəb yumurtadan çıxan xoruzun görüntüsüdür. Belə ki, xoruzun pipiyi cüt buynuza bənzəyir. Sultan cinsi olan xoruzların adətən bir buynuzu olur. İğci bu xoruzla bağlı internet vasitəsilə hollandiyalı professora məktub yazıb. Sonuncu ona bu olayın normal olmadığını, bundan əvvəl belə bir xoruzla qarşılaşmadığını deyib. Gənc bildirib ki, xobbi olaraq bağçasında dəvə, göyərçin, ördək, qaz, inək, hinduşka və at saxlayır: "Dostumun göndərdiyi yumurtalardan çıxan xoruzların heç birində bir dənə belə buynuz çıxmadığı halda, bu xoruz böyüdükcə iki ədəd buynuza bənzər pipik çıxdı. İndi hamı xoruzu görmək üçün mənim bağçama gəlir. Hələ elm dünyası bu xoruzun sirrini tapa bilmir".**



## Ən çox yalanı menecerlər danışırmış...

**Rusiyadakı şirkətlərdə hər ikinci əməkdaş yalan danışmağa meyllidir. Onlar bunu peşə fəaliyyətləri zaman edirlər. Onların 4 faizi bunu daim edir, 29 faizi isə zaman-zaman yalan silahına əl atır. Daha çox ticarət sektorunda çalışanlar yalan danışırlar. Sorğu çərçivəsində 3439 nəfər şirkət işçisinin rəyi soruşulub. Məlum olub ki, top menecerlər ən böyük yalançılar siyahısındadır. Onların 65 faizi mahir yalançıdır. Üçüncü yeri hüquqşünaslar tutub. Onların 63 faizi iş prosesindən yalandan istifadə etdiklərini boyunlarına alıb. Hamıdan az yalan danışmağa cavan əməkdaşlar, həkimlər, mühasib və maliyyəçilər meyl edirlər.**

Rəyi soruşulanların 68 faizi iddia edir ki, onların yalanlarının üstü əsasən açılmır. Yalanın qurbanları isə daha çox şirkət rəhbərliyi (53 faiz) və müştərilərlə həmkarlar (43 faiz) olur.

# Disneyda da selfi çubuğu qadağan edildi

**Disney şirkəti əyləncə parklarında selfie çubuğunu qadağan edib. Maraqlıdır ki, bu günə qədər parklardakı maşınlara minəndə onsuz da selfi çubuğuna icazə verilmirdi. Amma son olaraq ziyarətçilərdən gələndə özləri ilə selfi çubuğu gətirməmələri xahiş edilib.**

Qadağa gələn həftə Disney parklarında qüvvəyə minəcək. Paris və Honq Konqda da bu qadağa tətbiq olunacaq. Disney təmsilçisi BBC-yə açıqlamasında bildirib ki, bu çubuqlar həm ziyarətçilərə, həm də park işçilərinə təhlükə yaradır. Çubuqlar şəkil çəkmək üçün uzadıldığı zaman insanlara dəyərək onları yaralaya bilər. Bu da şirkətin açıqlamasında qeyd olunub.

Xatırladaq ki, bundan öncə Nyu-Yorkda muzeyə gələnlər selfi çəkərkən tarixi əsərlərə zərər verdikləri üçün selfi çubuqları şəhərdə qadağan edilib. Bu qadağalara daha əvvəl bənzər selfi çubuqlarıyla tarixi əsərlərə verilən zərərlər səbəb kimi göstərildi.





## Uşağına bu adı qoy, 10 min dollar qazan

**ABŞ ərazisində 159 şöbəsi olan "BJ's Restaurant & Brewhouse" restoranı menyusuna daxil etdiyi yeni bir yeməyi reklam etmək üçün maraqlı bir üsula baş vurub. Restoran rəhbərliyi elan verib ki, menyusuna "Quinoa" adlı yemək əlavə edib və bu adı uşağına qoyan ilk cütlüyə 10 min dollar mükafat verəcək. Qalib gələn cütlüyü müəyyənləşdirmək üçün şirkət uşağın doğum şəhadətnaməsini və valideynlərinin də sənədlərini tələb edir.**

Şirkətin daha bir aksiyası isə sosial şəbəkədə başlanıb. Onlar facebookda adını "Quinoa" olaraq dəyişən insanlara da 10 dollarlıq çek verirlər. Artıq kampaniya xeyli diqqət çəkib. Şirkət rəsmiləri bildirib ki, Amerikada bu adda uşaq yoxdur və bu kampaniya yeni bir dəbin başlanmasına səbəb olacaq.




**QOÇ** - Şəxsi işlərinizdə müsbət dönüş baş qaldırmaqdadır. Özünüzü tənzimləməyə çalışın. Müvəffəqiyyət başınızı gicəlləndirməməlidir. Vaxtilə həyatınızda rol oynayan insanları yada salın.

**BUĞA** - Yaxşı olar ki, günün əsas hissəsini ailə-sevgi məsələlərinə həsr edəsiniz. Başqalarını özünüzdən incik salmayın. Mənasız məsələlərə görə risk etməyə lüzum yoxdur.

**ƏKİZLƏR** - Sürprizlərlə dolu bir gün yaşayacaqsınız. Çox güman ki, bir neçə sevindirici hadisənin şahidinə çevriləcəksiniz. Nahar ərəfəsində isə müqəddəs ziyarətgahlarımızdan birinə baş çəkin.

**XƏRÇƏNG** - Hiss olunur ki, maddi durumunuz ürəkaçan deyil. Bu səbəbdən də ümumi ovqatınız aşağı səviyyədədir. Lakin ulduzlar axşama doğru kisənizdə dəyişiklik olacağına eyham edir.

**ŞİR** - Ətafınızda baş verən hadisələrin ürəyinizcə getməməsi ümumi ovqatınızı aşağı salmaqdadır. Lakin ruhdan düşməyə heç bir əsas yoxdur. Sadəcə, bir qədər səbr edib, yeni perspektivə hazırlaşmaq lazımdır.

**QIZ** - Qarşınızda olduqca məhsuldar bir gün durur. Qərarlarınızda qəti olun. Aldığınız təkliflər müsbət nəticələr verəcək. Axşam uzaq olmayan ünvanlara qonaq gedə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 15-ə qədər mübahisəli situasiyalara cəlb olunma ehtimalınız var. Özünüzü ələ almağı bacarsanız, sonrakı saatlarda şəxsi işlərinizdə müsbət dönüş baş qaldıracaq. Qohumlara sayqı göstərin.

**ƏQRƏB** - Digərləri ilə müqayisədə bu gün daha çox sizin bürcünüz başıdinc yaşayacaq. Əsas enerjinizi məhəbbətə həsr edin ki, bu proses uzun sürsün. Sövdələşmələrdə təşəbbüskarlığı əldən verməyin.

**OXATAN** - Bir qədər gərgin ərəfədir. Lazımsız məqamlarda, günahsız adamlarla mübahisələrə girişməyin. Əks təqdirdə, özünüzə qarşı rəğbəti itirə, həmçinin sevgidə təklənə bilərsiniz. Səfərə çıxmaq yaxşıdır.

**OĞLAQ** - Göy qübbəsi maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Belə ki, nahar ərəfəsində varlanma ehtimalınız var. Lakin boş məsrəflərə xərc çəkməkdən yayınmalı, "yamangünlük" saxlamalısınız.

**SUTÖKƏN** - Həddindən ziyadə yorğun və gərgin gündür. Qarşınızda duran vəzifələrin öhdəsindən gələcəyinizə inamsızsınız. Amma bədbinləşməyə dəyməz. Çünki gözəl günlər yaxınlaşmaqdadır.

**BALIQLAR** - İyul ayının ən düşərli günlərindən birini yaşayacaqsınız. Hər mənada uğurlu məqamlarla üzləşəcəksiniz. Yeni təkliflər, xoş xəbərlər, maddi irəliləyiş - bir sözlə, ətrafda hər şey gözəl olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bələdiyyə sədri timsahla "evləndi"



**Meksikada əsas qazancı balıqçılıq olan bir qəsəbədə bələdiyyə sədri timsahla "ailə qurub". Bu "izdivac"ın səbəbi isə onun qəsəbəyə uğur gətirəcəyi inamıdır. San Pedro Huamelula qəsəbəsinin sədri mediaya açıqlamasında deyib ki, hazırda qəsəbədə ov mövsümüdür və bu evlilik qəsəbəyə şans gətirəcək. Simvolik nikahın ardınca bələdiyyə sədri "gəlin"i də öpüb və bunun çox bərəkətli olacağını deyib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300